**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ METODİKA ŞÖBƏSİ**




# Ölkəşünaslıq ədəbiyyatının Uşaq Kitabxanalarında təbliği
**(metodiki məktub)**

**Bakı- 2014**

**Redaktor: Şəhla Qəmbərova-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi: Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı**

**Azərbaycan Respublikası Prezidentinin**

**2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

## 1. Ümumi əsaslar

### 1.1. Mövcud vəziyyət

Azərbaycan çoxəsrlik tarixə malik maddi mədəniyyət nümunələri ilə zəngin bir ölkədir.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü 2001-ci ildə təsdiq edilmiş, yeni aşkar olunmuş abidələr mütəmadi olaraq daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına əlavə olunmuşdur. Hazırda Azərbaycan Respublikasının ərazisində 6308 tarix və mədəniyyət abidəsi dövlətin mühafizəsindədir, 27 dövlət tarix-mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruğu fəaliyyət göstərir.

Azərbaycan Respublikasının beynəlxalq qurumlara üzv olması və mədəni irs sahəsində beynəlxalq müqavilələrə tərəfdar çıxması daşınmaz mədəni irsin qorunması istiqamətində tədbirlərin davamlı inkişafı zərurəti yaradır.

Əsrlərin sınağından keçmiş, təbii təsirlərə məruz qalmış və nəticədə qəza vəziyyətinə düşmüş tarix və mədəniyyət abidələrinin əksəriyyətində təxirəsalınmaz konservasiya və bərpa işləri aparılmalıdır.

Son illər ərzində Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Yanardağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğu, "Atəşgah məbədi" dövlət tarix-memarlıq qoruğu, "Keşikçidağ" dövlət tarix-mədəniyyət qoruğu və "Xınalıq" dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu yaradılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 mart tarixli 74 nömrəli Qərarı ilə "Abidə qoruqlarının nümunəvi Əsasnaməsi" təsdiq edilmişdir.

2000-ci ildə "İçərişəhər" dövlət tarix-memarlıq qoruğu, o cümlədən Şirvanşahlar sarayı kompleksi və Qız qalası, 2007-ci ildə "Qobustan" dövlət tarixi-bədii qoruğu UNESCO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilmişdir.

"Qobustan" dövlət tarixi-bədii qoruğunun yüksək əhəmiyyəti nəzərə alınaraq, "Qobustan dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorunması haqqında" Azərbaycan Respublikası Prezidentinin

**2007-ci il 11 iyun tarixli 2213 nömrəli Sərəncamı imzalanmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 noyabr tarixli 172 nömrəli Qərarı ilə "Qobustan" dövlət tarixi-bədii qoruğuna milli qoruq statusu verilmişdir. Qobustan milli tarix-bədii qoruğu ərazisində qoruğun yeni inzibati binası tikilmiş və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyası yaradılmışdır.**

**Ötən müddət ərzində "İçərişəhər" dövlət tarix-memarlıq qoruğunun və Qobustan milli tarix-bədii qoruğunun ərazisində yerləşən abidələrin qorunması təmin edilmiş, əraziləri abadlaşdırılmış və yeni turizm marşrutları müəyyən olunmuşdur. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir.**

**"Qala" dövlət tarix-etnoqrafiya qoruğunun ərazisində Heydər Əliyev Fondu tərəfindən yaradılan "Qala" arxeoloji-etnoqrafik muzey kompleksi Azərbaycanın tarixi keçmişini qoruyub saxlamaqla yanaşı, qoruğun turizm mərkəzlərindən birinə çevrilməsinə imkan yaradır.**

**"Atəşgah məbədi" dövlət tarix-memarlıq qoruğunun mühafizəsi və maddi-texniki təminatı barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 1 iyul tarixli 365 nömrəli Sərəncamına əsasən qoruğun konservasiya və bərpası üzrə layihə-smeta sənədlərinin hazırlanması, ərazidə arxeoloji tədqiqat işlərinin aparılması və "Atəşgah" tarixi muzey mərkəzinin yaradılması üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan bir milyon manat vəsait ayrılmışdır. Qoruğun ərazisində genişmiqyaslı bərpa-konservasiya, elmi tədqiqat, yenidənqurma və abadlaşdırma işləri aparılmış, abidənin daxilində, o cümlədən yeni inzibati binanın interyerinin və ekspozisiya sahəsinin bədii tərtibatının layihəsi hazırlanmışdır.**

**Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, o cümlədən Bakı şəhərində "Şirvanşahlar Sarayı Kompleksi", "Məhəmməd" məscidi, "Kiçik Karvansaray", "Bazar meydanı", "Məktəb-məscid", Şəki rayonunda "Şəki Xan Sarayı", qala divarları, "Kiş" alban məbədi, "Aşağı Karvansaray", "Şəkixanovların evi", Quba rayonunun Xınalıq kəndində Əbu-Müslüm və Xıdır Nəbi məscidləri, Naxçıvan şəhərində "Möminə Xatun", Şərur rayonunda "Qudi-Xatun" türbələri, Culfa rayonunda "Xanəgah" memarlıq kompleksi, Babək rayonunda "Əshab-ül-Kəhf" ziyarətgahı dini mədəni abidə kompleksi, Qusar rayonunda "Şeyx Cüneyd" türbəsi, Qax rayonunda "Kürmük" məbədi, "Sumuqqala" abidəsi, Gəncə şəhərində Nizami Gəncəvi məqbərəsi, Hacıqabul rayonunda "Pir Hüseyn" xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri başa çatdırılmış, bəzi abidələrin ətrafında sel sularından mühafizə üçün drenaj sistemi qurulmuş, ərazisi işıqlandırılmış, qoruqlara gedən magistral yollarda informasiya lövhələri və yol nişanları quraşdırılmışdır. Qoruqların bir qisminin maliyyələşdirilməsi dövlət büdcəsinin yerli xərclərindən mərkəzləşdirilmiş xərclərinə keçirilmişdir. Daşınmaz tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və mühafizə zonalarının müəyyən edilməsi istiqamətində işlər davam etdirilir.**

**Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) milli mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq, daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, tarix və mədəniyyət qoruqlarının mühafizəsinin müasir səviyyədə təşkilinə, daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilmişdir.**

**1.2. Dövlət Proqramının məqsəd və vəzifələri**

**Dövlət Proqramının əsas məqsədi daşınmaz tarix və mədəniyyət abidələrinin bərpasını, qorunmasını, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsini və inkişafını təmin etməkdir.**

**Dövlət Proqramı aşağıdakı vəzifələrin yerinə yetirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:**

**- daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması, bərpası, istifadə və idarə olunması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, qabaqcıl və mütərəqqi təcrübənin tətbiqi, zərurət yarandıqda həmin məqsədlərə beynəlxalq mütəxəssislərin cəlb olunması;**

**- daşınmaz mədəni irsin qorunması işinin təkmilləşdirilməsi, həmin məqsədlə daşınmaz mədəni irsin, o cümlədən arxeoloji abidələrin inventarlaşdırılması, mühafizə zonalarının müəyyən edilməsi, pasportlaşdırılması və müasir tələblərə cavab verən məlumat bazasının yaradılması;**

**- tarix və mədəniyyət qoruqlarının ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması işinin təkmilləşdirilməsi, həmin məqsədlə tarix və mədəniyyət qoruqlarının sərhədlərinin müəyyən edilməsi və xəritələrinin hazırlanması, qoruqların ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin siyahıya alınması, pasportlaşdırılması, müasir tələblərə cavab verən məlumat bazasının yaradılması, tarix və mədəniyyət qoruqlarının maddi-texniki bazasının inkişafı;**

**- daşınmaz tarix və mədəniyyət abidələrində bərpa və konservasiya işlərinin aparılması;**

**- daşınmaz mədəni irsin qorunması üzrə hüquqi aktların təkmilləşdirilməsi;**

**- daşınmaz tarix və mədəniyyət abidələrinin öyrənilməsi, o cümlədən turizm məqsədləri ilə onlardan istifadə imkanlarının araşdırılması;**

**- turizm məqsədləri ilə istifadə edilən daşınmaz tarix və mədəniyyət abidələrində və qoruqlarda müasir turizm infrastrukturunun yaradılması;**

**- daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması və bərpası üzrə yüksəkixtisaslı peşəkar kadrların hazırlanması;**

**- Azərbaycanın daşınmaz mədəni irsinin ölkə daxilində və beynəlxalq**

**miqyasda təbliği və təşviqi.**

**1.3. Dövlət Proqramının maliyyələşdirilməsi**

**Dövlət Proqramının icrası üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində Dövlət Proqramının icrasına məsul dövlət orqanları üçün nəzərdə tutulmuş vəsaitlər, habelə büdcədənkənar vəsaitlər, kreditlər və qrantlar hesabına maliyyələşdirilir.**

**1.4. Gözlənilən nəticələr**

**Dövlət Proqramının həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:**

**- daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması;**
**- tarix və mədəniyyət qoruqlarının inkişafı;**
**- mədəni irsin qorunması üzrə idarəetmə sisteminin və normativ hüquqi bazanın təkmilləşdirilməsi;**
**- daşınmaz tarix və mədəniyyət abidələrində aparılan bərpa və konservasiya işlərinin inkişafı;**
**- Azərbaycanın tarixi və mədəni irsinin təbliği imkanlarının genişləndirilməsi;**
**- mədəni irsin öyrənilməsində müasir texnologiyaların, aparıcı beynəlxalq təcrübənin tətbiqi, tarix və mədəniyyət abidələrinin genişmiqyaslı tədqiqi;**
**- daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması və bərpası sahəsində yüksəkixtisaslı peşəkar kadrların formalaşması;**
**- turizmin inkişafı;**
**- yeni iş yerlərinin yaradılması, bölgələrdə əhalinin mədəni irsin qorunmasına cəlb edilməsi.**

**2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı**

| № | Tədbirlərin adı | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| | **2.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | |
| **2.1.1.** | **Azərbaycan Respublikasının ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin yeni siyahısının tərtibi və təsdiqi** | **Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası** | **2014-2016** |

| | | | |
|---|---|---|---|
| **2.1.2.** | **Daşınmaz tarix və mədəniyyət abidələrinin balans mənsubiyyətinin dəqiqləşdirilməsi** | **Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi** | **2014-2016** |
| **2.1.3.** | **Daşınmaz tarix və mədəniyyət abidələrinin, tarix və mədəniyyət qoruqlarının qorunması və onlardan istifadə sahəsində hüquqi aktların təkmilləşdirilməsi** | **Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Ədliyyə Nazirliyi** | **2014-2015** |
| **2.1.4.** | **Xüsusi mülkiyyətdə olan, o cümlədən tarix və mədəniyyət qoruqlarının ərazisində yerləşən daşınmaz tarix və mədəniyyət abidələrinin (onların ayrı-ayrı hissələrinin) dövlət tərəfindən satın alınması qaydasına dair təkliflərin hazırlanması** | **Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Ədliyyə Nazirliyi** | **2014** |
| **2.1.5.** | **Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpa-konservasiya işlərinə dair normativ sənədlərin (o cümlədən layihə-smeta sənədlərinin hazırlanmasının və dövlət ekspertizasının) beynəlxalq standartlara uyğunlaşdırılması** | **Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Ədliyyə Nazirliyi** | **2014-2016** |
| **2.2. Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və** | | | |

| | | | |
|---|---|---|---|
| | qorunması işinin təkmilləşdirilməsi | | |
| 2.2.1. | Tarix və mədəniyyət abidələrinin idarə olunma sisteminin təkmilləşdirilməsi | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 2014 |
| 2.2.2. | Tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən maddi-texniki bazasının inkişafı, ərazisində xüsusi rejimin saxlanılması məqsədi ilə mühafizəsinin təmin edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2014-2020 |
| 2.2.3. | Daşınmaz mədəni irsin qorunması işinin təkmilləşdirilməsi, o cümlədən daşınmaz mədəni irsin, həmçinin arxeoloji abidələrin inventarlaşdırılması, sərhədlərinin və mühafizə zonalarının müəyyən edilməsi, pasportlaşdırılması və xəritələrinin hazırlanması, müasir tələblərə cavab verən məlumat bazasının yaradılması, multimedia və elektron müşahidə sistemlərinin tətbiqi | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2014-2020 |
| 2.2.4. | Tarix və mədəniyyət qoruqlarının | Mədəniyyət və Turizm | 2014-2020 |

| | | | |
|---|---|---|---|
| | ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması işinin təkmilləşdirilməsi, o cümlədən həmin məqsədlə tarix və mədəniyyət qoruqlarının sərhədlərinin müəyyən edilməsi və xəritələrinin hazırlanması, qoruqların ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin siyahıya alınması, pasportlaşdırılması, müasir tələblərə cavab verən məlumat bazasının yaradılması | Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | |
| **2.2.5.** | **Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunmasında müasir texnologiyaların və təcrübənin tətbiq olunması** | **Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi** | **2014-2020** |
| **2.2.6.** | **Tarix və mədəniyyət qoruqlarında və turizm məqsədləri üçün istifadə edilən daşınmaz tarix və mədəniyyət abidələrində turizm infrastrukturunun yaradılması və inkişafı** | **Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları** | **2014-2020** |
| **2.2.7.** | **Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması və bərpası üzrə yüksəkixtisaslı kadrların hazırlanması** | **Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası** | **2014-2020** |
| **2.2.8.** | **Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması sahəsində YUNESKO və digər beynəlxalq** | **Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər** | **2014-2020** |

| | | | |
|---|---|---|---|
| | qurumlarla əməkdaşlığın inkişaf etdirilməsi | Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | |
| 2.2.9. | Daşınmaz tarix və mədəniyyət abidələrininbərpa-konservasiya işlərinə peşəkar xarici mütəxəssislərin cəlb edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 2014-2020 |
| 2.2.10. | Daşınmaz tarix və mədəniyyət abidələri üzərində təmir və bərpa işləri üçün yerli xammal və materialların istehsalının təşkili | İqtisadiyyat və Sənaye Nazirliyi | 2014-2016 |
| | **2.3. Monitorinq, bərpa-konservasiya, tədqiqat və təbliğat işləri** | | |
| 2.3.1. | Daşınmaz tarix və mədəniyyət abidələrinintexniki vəziyyətinin öyrənilməsi üçün monitorinqlərin keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, yerli icra hakimiyyəti orqanları, bələdiyyələri cəlb etməklə | 2014-2020 |
| 2.3.2. | Daşınmaz tarix və mədəniyyət abidələrində bərpa-konservasiya işlərinin aparılması | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2014-2020 |
| 2.3.3. | Yaşayış məntəqələrinin baş | Dövlət Şəhərsalma və | 2014-2020 |

| | | | |
|---|---|---|---|
| | planları layihələndirilən zaman, həmçinin tikinti-quraşdırma və abadlıq işləri aparılarkən abidələrin mühafizə zonalarının nəzərə alınması | Arxitektura Komitəsi, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, yerli icra hakimiyyəti orqanları | |
| 2.3.4. | Qoruqlara yeni avtomobil yollarının çəkilməsi, mövcud yolların təmiri, nəqliyyat infrastrukturunun təşkili və təkmilləşdirilməsi, qoruqların istiqamətini göstərən yol nişanlarının və məlumat lövhələrinin quraşdırılması | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, İqtisadiyyat və Sənaye Nazirliyi, Nəqliyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları, bələdiyyələri cəlb etməklə | 2014-2016 |
| 2.3.5. | Tarix və mədəniyyət qoruqlarında elmi tədqiqatların səmərəliliyini artırmaq məqsədi ilə tədbirlərin həyata keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları, bələdiyyələri cəlb etməklə | 2014-2018 |
| 2.3.6. | Dərsliklərə Azərbaycan Respublikasının daşınmaz mədəni irsi haqqında məlumatların salınması | Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2014-2020 |
| 2.3.7. | Azərbaycanın işğal altında olan torpaqlarında yerləşən daşınmaz mədəni irsi haqqında kitabların | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər | 2014-2015 |

| | | | |
|---|---|---|---|
| | çap etdirilməsi | Akademiyası | |
| 2.3.8. | Daşınmaz tarix və mədəniyyət abidələrinin öyrənilməsi və təbliği işinin təkmilləşdirilməsi, o cümlədən tarix və mədəniyyət qoruqlarının veb-saytlarının yaradılması, Azərbaycan Respublikasının daşınmaz mədəni irsi haqqında çap məhsullarının hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası | 2014-2020 |

## Tərtibçidən

Böyüməkdə olan gələcək nəsillərə doğma Azərbaycanımızı tanıtmaq hamımızın borcudur. Hərə bildiyi və bacardığı qədər bunu etməlidir. Belə bir iş müqəddəs bir işdir. Hər bir nəsil yaşadığı mühitə göz açır, onun ab-havası ilə böyüyür, necə deyərlər, hər şeyi bir növ hazır görür. Və bilmir ki, onun tarixi, və keçmişi var. Bu gün dünəndən yaranıb, sabah da bu gündən yaranacaq. Bildiyiniz kimi, tarix və çağdaşlıq qırılmaz tellərlə bağlıdır. Biri digərsiz ola bilməz. Odur ki, biz hamımız tariximizi, keçmişimizi əzbər bilməli və bildiklərimizi gələcək nəslə bacardığımız qədər çatdırmalıyıq. Elə buna görə də bizə bu işdə yazılı mənbələr, peşəkar tarixçilər, görüb-götürmüş müdriklər, el ağsaqqallarımızın xatirələri həmişə yardımçı olur.

Bildiyiniz kimi, "Ölkəşünaslığın Uşaq Kitabxanalarında" təbliği geniş bir mövzudur. Geniş olduğu qədər də çətin bir mövzudur. Bu mövzu həmişə aktual olmuş və olacaqdır. Bu il F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsində bu mövzuyla bağlı iş planı tutulmuşdur. Bu iş planına bir çox tədbirlərin keçirilməsi salınmışdır ki, bu plana əsasən də biz kitabxanaçılar öhdəmizə düşən vəzifəni bildiyimiz və bacardığımız qədər görməyə həmişə hazırıq.

Bu məqsədlə də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "Ölkəşünaslığın Uşaq Kitabxanalarında təbliği" adlı metodiki vəsait hazırlanmışdır. Bu vəsaiti hazırlamaqda məqsədimiz respublikamızda fəaliyyət göstərən bütün kitabxana işçilərini, məktəb və lisey kitabxanaçılarını təlimatlandırmaq, onlar üçün metodiki məktublar, tövsiyə ədəbiyyat siyahıları tərtib etmək, bir sözlə respublikamızın tarixi, coğrafiyası, təbiəti və yaradıcı insanlardan tutmuş tanınmış şəxsiyyətlərinə qədər bəhs etməkdən ibarətdir.

Beləliklə, hazırladığımız metodiki vəsait ümüdvarıq ki, bütün şəhər və rayon kitabxanaçıları, məktəb kitabxanaçıları, lisey və gimnaziya işçilərinin köməyinə çatacaqdır. Çünki, bizim əsas məqsədimiz Azərbaycanımızın hər bir bölgəsini, hər bir dilbər guşəsini gələcək nəsillərə sevdirməkdən ibarətdir. Ölkəşünaslıq mövzusu həmişə şöbəmizin diqqət mərkəzindədir.

## I Bölmə. Ölkəşünaslıq tarixinə bir baxış.

**"Gələcəyimiz milli ruhda tərbiyə olunmalıdır, gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz"**

**Heydər Əliyev!**

Azərbaycan...
Üzərindən sevənlərinin duaları kəsilməyən sevda məkanım...
Torpağına rəhmət yağışı, hikmət şehi düşən canım məmləkətim...
Qədim-cavan-gələcəkli, dünya xəritəsinin qiymətli daşı-əvəzsiz
Diyarım...
Ruhumun sədası, qəlbimin sirdaşı, dilimin şirin ana sözü –Azərbaycan!

Sən heç vaxt kölgəsi itməyəcək, varlığı, əzəməti getməyəcək bir kainat möcüzəsisən.

Xəbis düşmən səndən bir parçanı-Qarabağını qoparıb almaq istədi.

Gözləri kor oldu-görmədilər kəsmək istədikcə, kökündən bitən fidanı görmədilər-kökü anaya bağlı telləri.

Qarabağım, qərib durma, qərib olma, Azərbaycanın sinəsindəsən-oradan kim qoparıb kəsə bilər səni...

Dünya durduqca bütöv qalacaq-sevilmiş,
Sevilən, seviləcək ərlər yurdu, mərdlər diyarı-
Azərbaycan!...



İlk öncə Ölkəşünaslıq və coğrafiya elmlərinə bir nəzər salaq. Ölkəşünaslıq deyəndə nə başa düşülür? Ölkəşünaslıq coğrafiya elminin kiçildilmiş bir «modeli»dir.

Ölkəşünaslıq bir diyarın (geniş mənada ölkənin) təbii coğrafi şəraitini, tarixi və mədəniyyətinin (qədim dövrdən müasir dövrə qədər olan tarixini, dövlət quruluşunu, dövlətin iqtisadi-siyasi sahələri, qəhrəmanlıq tarixi, şəxsiyyət, incəsənət, musiqi, ədəbiyyat, elmi-texnika, memarlıq və s.) onun sosial-iqtisadi, siyasi, etnoqrafiya, adət və ənənələrini öyrənən bir elmdir.

Ölkəşünaslıq bəşər cəmiyyətinin keçmişini hərtərəfli öyrənən elm sahəsidir. Dünya tarixindən ümumi məlumatlara malik olmaqla yanaşı hər bir xalq öz tarixi keçmişini daha dərin və ətraflı bilməlidir. Bildiyiniz kimi, tarixi öyrənmə daha çox sənəd və faktlara söykənir. Xalqların mənəviyyatı, adət-ənənələri, dilləri, ictimai-siyasi həyatı və s. haqqında bilgi verən və dövrümüzə qədər gəlib çatan maddi-mədəniyyət abidələri, yazılı sənədlər öz əksini tarixi mənbələrdə tapır. Ölkəşünaslıq bu yönümdə əvəzolunmazdır. Ölkəşünaslıq materiallarının içərisində ərazinin ümumi tarixi ilə yanaşı, yerli tarixi fakt və hadisələr xüsusi önəm daşıyır. Təsadüfi deyil ki, bölgələrdə fəaliyyət göstərən Tarix-Diyarşünaslıq muzeyləri yerli əhali arasında çox böyük populyarlığa malikdir.

Ölkəşünaslığın öyrənilməsi ölkənin bir guşəsinin öyrədilməsindən başlanılır. Yeri gəlmişkən qeyd edək ki, ölkəşünaslıq, diyarşünaslıq oxşar və paralel bir sahədir. İndiki, vaxtda isə bu termin regionşünaslıq da adlandırılır.

Ölkəşünaslıq materialının işlənməsində məqsədimiz kitabxanamızdan istifadə edən oxucuların, rayon və kənd kitabxanalarının oxucularının vətənpərvərlik, milli qürur hiisinin daha da yüksəldilməsindən ibarətdir. Ölkəşünaslıq materiallarının yazılması, nəşr edilməsi faydalı iş olmaqla bərabər həm də tədqiqatçılıq xarakteri daşıyır. Belə bir iş nəinki oxucularda təlim-tərbiyə işinin keyfiyyətini yüksəldir, eyni zamanda kitabxanaçıların, müəllimlərin və s. ideya-siyasi və elmi nəzəri səviyyəsini və biliklərini artırır.

Ölkəşünaslıq fikri ümumi şəkildə XIX əsrin əvvəllərində Pestalotsi Alyak tərəfindən irəli sürülmüş, XIX əsrin yarısında isə rus pedaqoqu K.D.Uşinski pedaqoji fikir tarixində birinci olaraq nəzəri cəhətdən işləmişdir. Azərbaycanın tarixində bu sahə daha qədimdir. Lakin pedaqoji ədəbiyyata daxil edilməmişdir.

Ölkəşünaslıq işini tarixi cəhətdən beş dövrə bölmək olar.

1. Qədim dövr.
2. Çar Rusiyası və İran hakimiyyəti dövrləri.
3. Birinci Azərbaycan respublikası(AXC) dövrü.
4. Azərbaycanın Rusiyada Sovet dövrü.
5. Azərbaycan müstəqil respublikasının (Üçüncü Azərbaycan respublikası) bərpasından sonra olan tarix-diyarşünaslıq dövrü.

Bu dövrlər quruluşuna görə müxtəlif olsa da hər biri özü-özlüyündə tarix-diyarşünaslıq sahəsi üzrə müəyyən müsbət işlər görmüşdür. Zaman baxımından müstəqilliyini 90-cı ildən bərpa etmiş Azərbaycan respublikasının tarix-diyarşünaslıq işi gəncdir. Lakin bu dövrdə əhəmiyyətli iş aparılır. Respublikada

demokratik hərəkat genişlənmiş, ölkənin tarixinin doğru-düzgün yazılma imkanı əldə edilmişdir.

2000-ci ildən ulu öndər Heydər Əliyevin göstərişi ilə Azərbaycanın XIX və XX əsrlər tarixi yenidən yazılmışdır.

Uzun illər sirli qalan arxiv sənədləri üzə çıxır. Bununla yanaşı müstəqillik şəraitində Azərbaycanın elmi, mədəniyyəti, incəsənəti texnikanın bu və digər sahələri inkişaf edir. Təhsil sistemində islahatlar keçirilir.Yeni-yeni məktəblər açılır, müstəqil dövlətin diplomatiyası inkişaf edir. İqtisadi sahədə islahatlat keçirilir, özəlləşmə proqramı həyata keçirilir. Neft kontraktları bağlanılır. Dövlət bələdiyyələri yaradılır. Dövlət gömrük sahəsi inkişaf edir. Ölkəmizin tarixini əks etdirən tarix-ölkəşünaslıq muzeyləri yaradılır, köhnələri zənginləşir, Qarabağ qəhrəmanları şərəfinə abidələr ucaldılır (Heykəllər qoyulur, guşələr düzəldilir, şərəflərinə əsərlər yazılır). Müstəqillik şəraitində çoxlu dövlət qərarları verilir. Dövlət rəmzləri geniş kütləyə çatdırılır, Bu arada Konstitusiyamız dünya demokratik səviyyəsində təsdiqini tapmışdır. Və bütün bu sadaladıqlarımız isə ölkəşünaslıq üçün əsas mənbələrdir.

## II Bolmə. Keçmişə məhəbbət gələcəyə xidmətdir!

Vətən doğulub böyüdüyümüz və yaşadığımız torpaqdan başlanır. Onu sevməklə yanaşı, həm də dərindən öyrənmək, yaxından tanımaq lazımdır. Vətən-Azərbaycan adlanan yurdumuzu, milyon illərin, kəşməkeşli tarixlərin yadigarını, əsrlərin övladını daha ətraflı tanımaq üçün onun geniş çöllərini, başı qarlı dağlarını, yaşıl çəmənlərini, qalın meşələrini, ellərini, kəndlərini, şəhərlərini gəzməklə yanaşı müxtəlif məlumat nəşrlərini də əldə etmək, çoxlu mütaliə etmək lazımdır. Həmin qiymətli xəzinəni özündə qoruyub saxlayan mənəvi sərvət xəzinələrimiz olan kitabxanaların bu işdə rolu əvəzedilməzdir. F.Köçərli adına Uşaq Kitabxanasında ölkəşünaslıqla bağlı həyata keçirdiyimiz tədbirlər, gördüyümüz işlər doğma diyarın öyrənilməsinə, sevimli Vətənimizin yaxından tanınmasına həmişə köməklik edir.

Kitabxanamızın ölkəşünaslıq fəaliyyətinin əsas məqsədi oxucuları ölkəşünaslığa dair informasiya resursları ilə lazımi səviyyədə təmin etmək, bu sahədə biliklərin formalaşdırılmasına yardım göstərməkdən ibarətdir.

Azərbaycan, Odlar diyarı, Şərqin ən qədim, təbii-coğrafi şəraitinə görə isə dünyanın ən səfalı, ən zəngin ölkələrindən biridir. Azərbaycan ərazisi, əsasən subtropik və mülayim iqlim zonasında yerləşir. Mürəkkəb relyef, Xəzər dənizinin yaxınlığı, günəş radiostansiyasının çoxluğu və hava dövranının kompleks təsiri nəticəsində Azərbaycanda yer kürəsinin 11 əsas iqlim tipindən 9-u müşahidə olunur. 9 iqlim qurşağında nəfəs alan gülzar torpağımızın rəngarəngliyi və zənginliyi burada bitki aləminin inkişafını və torpağımızın bollu-bərəkətli floraya malik olmasını göstərir.

Azərbaycanın iqliminə ölkənin coğrafi mövqeyi, relyefi və Xəzər dənizi əsaslı təsir göstərir. Burada yarımsəhra və quru çöl, subtropik, mülayim və soyuq iqlimə rast gəlinir. Yer kürəsindəki 11 iqlim tipindən (V.V.Keppenə görə) 8-i burada olduğu müəyyən edilmişdir. Quru subtropik iqlim Kür-Araz ovalığı və Abşeron üçün xarakterikdir. Rütubətli subtropik iqlim yalnız Talış dağlarının cənubunda müşahidə edilir, dağətəyi ərazilər və Lənkəran ovalığı üçün səciyyəvidir. Mülayim iqlim Böyük və Kiçik Qafqazın əsasən meşələrlə örtülü yamaclarında müşahidə olunaraq, quru, mülayim-isti quru, mülayim-isti rütubətli və mülayim soyuq iqlimlərə ayrılır.

Azərbaycan Respublikasının ərazisi 86,6 min km, əhalisi 9356.5 min nəfərdir. Bu da o deməkdir ki, Azərbaycanın əhalisinin sayı 2013-cü ildə 9 milyon 412 min nəfər olmuşdur. Yəni hər kvadrat metrə 109 nəfər düşür.

Azərbaycanda ilk respublika Azərbaycan Xalq Cumhuriyyəti adı ilə 1918 il mayın 28-yaradılmış və 23 ay fəaliyyət göstərmişdir. 1920 il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti qurulmuş və 1991 ildə SSRİ dağılanadək davam etmişdir. 1991 il oktyabrın 18-də Milli Məclisdə Azərbaycanda dövlət müstəqilliyi

haqqında Konstitusiya Aktı qəbul olunmuş və Azərbaycan Respublikası Azərbaycan Xalq Cumhuriyyətinin varisi elan edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası 1995 il noyabrın 12-də ümumxalq referendumunda qəbul edilmişdir.

Azərbaycan Respublikasının dövlət bayrağı, gerbi və himni var. Dövlət dili Azərbaycan dilidir.

Azərbaycan Respublikası çox-sahəli sənayeyə və kənd təsərrüfatına, geniş nəqliyyat şəbəkəsinə, inkişaf etmiş elmə, qədim və zəngin mədəniyyətə malikdir. Azərbaycanda ağır sənaye sahələri daha çox üstünlük təşkil edir. Neft və qazçıxarma, neft-kimya, maşınqayırma, metallurgiya, yeyinti, tikinti materialları sənayesi, yüngül sənaye və s. inkişaf etmişdir. Kənd təsərrüfatı, əsasən, pambıqçılıq, üzümçülük, taxılçılıq, heyvandarlıq, tərəvəzçilik, meyvəçilik daha çox inkişaf etmişdir. Yük və sərnişin daşınmasında dəmir yolu, avtomobil, dəniz və hava yolları nəqliyyatı əsas yer tutur.

Azərbaycan Respublikasının tərkibinə Naxçıvan MR, 66 inzibati kənd rayonu(7-si Naxçıvan MR-dədir), 13 şəhər rayonu (Bakı-11,Gəncə-2) daxildir. Şəhər inzibati ərazi vahidləri Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Naxçıvan, Şirvan, Xankəndi və Naftalandır. Respublikada 70 şəhər, 239 qəsəbə, 4279 kənd var.




Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir. Milli pul vahidi manatdır.

Torpağımızın altı da, üstü də sərvətli, bərəkətlidir. Ulu tanrı doğma yurdumuzdan heç bir nemətini əsirgəməyib. Torpağımız elə bir iştah açan süfrədir ki, ta qədimdən dostun da düşmənin də gözü bu süfrədə qalıb. Gündoğandan günbatanadək çoxları bu süfrəyə can atıb, dəfələrlə zəngin yerüstü və yeraltı sərvətimizi ələ keçirməyə çalışıb, yurdumuzu, xalqımızı əsarətə salmağa cəhd edib. Görünür, elə başımıza gətirilən müsibətlərin səbəbi də bundadır.

Xalqımız zaman-zaman çox şeyini-bütövlüyünü, müstəqilliyini, milli adını, soy kökünü, əlifbasını, qeyrətli, ləyaqətli oğullarını itirib. Torpaqlarımız zaman-

zaman işgal olunub, iqtisadiyyatımız bərbad vəziyyətə salınıb, milli sərvətlərimiz talan edilib. Heç bir ölkənin ərazisinin başına Azərbaycandakı qədər oyun gətirilməyib, mənəviyyatına zərbə vurulmayıb. Yüzlərlə azad fikirli ziyalılar qırmızı imperiyanın qurbanı olub. Yüz minlərlə insan evindən-eşiyindən didərgin salınıb. Neçə dəfə əlifbamız dəyişdirilib. Əski əlifba ilə yazılmış cild-cild qiymətli kitablar, nadir əlyazmalar məhv edilib, tarix tarixdən gizlədilib, neçə-neçə tarixi yer-yurd adları yad adlara dəyişdirilib. Xalqımızın milli-tarixi keçmişi ilə bağlı müqəddəs təsisatlar amansızcasına, təqib olunub, bir çox dini ibadətgahlar dağıdılıb, məscidlər bağlanıb, dinimiz qadağan edilib, dindarlar, ruhanilər kütləvi şəkildə sürgünə göndərilib.

Ta qədimdən yaxının-uzağın iddiasından olmazın zülmlər görmüş Azərbaycan xalqı dünyanın sərt sınaqlarına dözmüş, acılı-şirinli, dostlu-düşmənli, ağır və nisbətən yüngül illəri arxada qoyaraq, nəhayət uzun əsrlərdən bəri həsrətində olduğu amalına-dövlət müstəqilliyinə yetişdi.

***Dünyanın sevgi havası-Azərbaycan...***
***Zaman-zaman sinənə dağ, çəkmək istədilər.***
***İgidlərinlə-dualı böyüklərinlə sipər oldun onlara...***
***Düşmənə çuxur, dosta türbə oldun-Azərbaycan...***
***Şükürlər-müstəqil oldun, şükürlər-azad oldun,***
***Şükürlər, ey qəlbi atəş dolu Azərbaycan...***
***Allah səni qorusun...Allah səni qorusun...***
***Ey Qafqazın minarəsi-Azərbaycan...***
***Ey sevənlərin sevgi zirvəsi-vətəndaşların canı, iman sevdalı-Azərbaycan...***

“Yaman günün ömrü az olar” demişlər. 70 ildən sonra xalqımız müstəqilliyini bərpa etdi. Lakin ağır itkilər bahasına əldə edilimiş müstəqilliyi qazanmaq nə qədər çətin olmuşdusa, onu hər tərəfdən iştahla açılmış ağızlardan qorumaq daha çətin oldu. Bu gün doğma Azərbaycanımızın 20 faizdən çox ərazisi, başının tacı Şuşa, özləri qorxaq tula olsalar da, quyruq buladıqları qüdrətli havadarlarının silah verib üstümüzə qışqırtdıqları üzü dönük, məkrli ermənilərin murdar çəkmələrinin tapdağı altındadır. Şuşa, Laçın, Ağdam, Kəlbəcər, Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl azad olmayınca xalqımızın qeyrətli, ər oğulları, mərd qızları rahatlıq tapa bilməz, başlarını dik tutub gəzə bilməzlər.

Ana adlandırdığımız Vətənin şərəfini, namusunu qoruyan neçə-neçə gül balalarımızın, şirinli-acılı həyatı yarıda qalmış bacı və qardaşlarımızın müsibətini beynimizdə dərk etsək də, ürəyimizi bu çəkilməz dərdə alışdıra bilmirik. Lakin bununla belə xalqımız ruhdan düşmür, sabahkı gününə böyük ümidlə baxır.

Müasir Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinə qayıdışı və ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Mayasını müstəqillik, azərbaycançılıq, dövlətçilik, respublikaçılıq, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu, milli tərəqqi, dünyəvilik və s. ümummulli, ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan dövlətinin daha da möhkəmləndirib inkişaf etməsində, respublikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişində, xalqımızın sosial rifahının yaxşılaşdırılmasında, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsində Heydər Əliyev siyasətini layiqincə davam etdirir.

Hazırda Azərbaycan qədim tarix və mədəniyyət irsinə malik dünyəvi və unitar dövlət olub, etnik azərbaycan çoxluğuna sahib ölkədir. Azərbaycan yeddi müstəqil türk dövlətindən biridir. Respublikanın 158 ölkə ilə diplomatik münasibəti vardır, 38 beynəlxalq təşkilatın üzvüdür.

## Qə di m Şə hə r Ba kı

Şəhərlər də insanlar kimi öz talelərini yaşayırlar. İllər ötdükcə böyüyür, qocalırlar. Nə vaxtsa babalarımız daşı-daş üstünə qoyub bir şəhər ucaldıblar. Adına Bakı deyiblər. Kimi onu "Badi-Kubə-küləklər şəhəri", kimi "Buruqlar şəhəri", kimi "liman şəhəri" adlandırıb. Kimin üçünsə Bakı taleyinin şəhəri, ilk məhəbbətinin şəhəri olub.

Ümummilli liderimiz Heydər Əliyev paytaxtımız Bakı haqqında fəxrlə deyirdi: **"Bakı gözəl şəhərdir. Bizim əcdadlarımız, Bakıda əsrlər boyu yaşamış insanlar gözəl şəhər yaradıblar, qurublar və bugünkü nəsillərə, gələcək nəsillərə bəxş ediblər".**

Qədim Bakı Xəzər dənizinin qərb sahilində, şimal küləyinin daim döyəclədiyi, cənub və qərb tərəfdən hündür çılpaq təpələrlə əhatə edilmiş çökəkdə salınmışdır. Şimal küləkləri qopduğu zaman öz yolunda Baş Qafqaz silsilə dağlarına toxunur və bütün gücü ilə silsilənin ətrafına yayılır, çılpaq boz təpələrin sinəsindən toz-torpağı qopararaq, burula-burula şəhərin üzərinə hücum çəkir. Elə ki onun qoynunda addımlayır, gəzirsən, məmləkətimizin nə üçün "Odlar yurdu" adlandırıldığının səbəbi aydın olur. Torpağının dərin-dərin qatlarından neft, qaz çıxarılır. "Yanardağ"ın məşəlləri sönmək bilmir. Bax, elə buna görə deyiblər: "Əgər neft kraliçadırsa, Bakı onun tacıdır".

Bakı qədim şəhərdir. Onun hansı əsrdə salındığı dəqiq məlum deyil. Məlum olduğuna görə, Bakı ətrafında ən qədim məkan yerlərindən bəziləri Xəzərin suları altında qalmışdır. Dənizin səthi yüksəldiyi zaman bir çox tikililər, hətta rəvayətə görə Səbail adlı bir şəhər də suya qərq olmuşdur.

Şəhərin ən yüksək yerində yerləşən Şirvanşahlar sarayında aparılmış qazıntılardan belə bir nəticəyə gəlmək mümkün olmuşdur: Bakı XII əsrin yadigarıdır. 1683-cü ildə Bakıda olmuş alman səyyahı Engelbert Kempfer Şirvanşahlar sarayına heyran qalmış və yazmışdır: "Şəhərin yuxarı hissəsində gözəl saray vardır ki, bu şah sarayı adlanır. Saray qayanın üstündə, doğrudan da əzəmətli tikilmişdir...". Kenmpfer daha sonra yazırdı: "Bakı şəhəri demək olar ki, düzbucaqlı şəklindədir. Ancaq bir tərəfi uzundur. Hər tərəfi min addım, bəlkə də artıqdır. Şəhərin bir tərəfi limandır. O biri tərəfi isə dənizə baxır. Qalan tərəfləri isə beş addım aralı olan iki divar içərisindədir. Divarlarda çoxlu yarım dairəvi

bürclər vardır. Divarın yuxarısı diş-dişdir. Şimal tərəfdəki darvazanın üzərinə dəmirdən üz çəkilmişdir”.

Bakı dünyanın şimal yarımkürəsindəki Madrid, Neapol, İstanbul, Nyu-York və Pekinlə təqribən bir en dairəsində yerləşir, o dünyanın ən qədim şəhərlərindən biridir.

Şəhərlər gözəli Bakı! Bu gün sənin çıraqban hüsnünə, fəvvarəli, su fontanlı küçə və meydanlarına baxdıqca fərəhdən qanadlanır, qəlbimizdən poetik bir misralar keçir:

***Canım Bakı, qanım Bakı,***
***ana Vətən!***
***Yaranmısan xalqımızın***
***qüdrətindən,***
***Qara qanın qaranlığa***
***işıq saçır,***
***Ağ günlərə, gələcəyə***
***yollar açır.***









Gözəlləşən, cavanlaşan Bakı, sən elə qədim, özündə tarix yaşadan abidələrinlə də gözəlsən. Tariximizin yadigarı Qız qalası. Yaşı bilinməyən qədim qala, neçə-neçə nəsillər gəlib keçib, əsrlər dolanıb, aylar illər ötüb, sən dəyişməmisən, qocalmamısan, möhtəşəmliyini qoruyub saxlamısan, Bakıya gələnləri həmişə heyran qoymusan.

Bakı sönməz odların yandığı bir məkandır. Bu şəhərin xüsusiyyəti odur ki, burada gündüz və gecə külək əsir, bəzən elə bərk əsir ki, adam küləyə qarşı gələ bilmir, qış vaxtları hətta atları və qoyunları aparıb dənizə salır. Şəhərin yaxınlığında çoxlu kəndlər var və hər kəndin möhkəm divarları olan istehkam qalası mövcuddur.

Bu gün Bakının zahiri simasının dəyişdirilməsi, onun görkəminin müasirləşdirilməsi həm də tariximizin qorunması ilə paralel aparılır. Belə ki, qədim bina və abidələrin bərpası tariximizin yaşamasına xidmət edir. İnanırıq ki, bu gün bu sahədə çalışan mütəxəssislərin məsuliyyəti, şəhərin simasına cavabdehlik Bakının memarlıq gözəlliyini təmin edəcək, memarlar şəhərdəki tikililərin yerini, məzmununu, formasını, həcm və kompozisiyasını şəhərsalma qanunlarına və tələblərinə müvafiq olaraq müəyyənləşdirəcəkdir. Çünki Bakı hamımızın canımız qədər sevdiyi paytaxtımızdır...

***Gözəl Bakı, göz bəbəyim,***
***paytaxtımsan,***
***Öz şəhərim, öz zəfərim,***
***öz baxtımsan!***

Azərbaycanın orta əsr tarixinin öyrənilməsində müdafiə əhəmiyyətli qalalar mühüm yer tutur. O dövrün siyasi-ictimai həyatında böyük rol oynamış bu qalalar respublikamızın ərazisində çoxdur. Bunların bəziləri xalq arasında Qız qalası adı ilə şöhrət tapmışdır. Bu adda olan qalalardan Bakı qız qalasını, Şamaxı yaxınlığındakı qalanı, Qazax, Gədəbəy, İsmayıllı və s. rayonlardakı qalaları göstərmək olar.

Bakıda Qız qalasının tikildiyi dövr dəqiq məlum deyil. Bu qalanın nə vaxt tikilməsi ilə bağlı hələ də birmənalı qənaət yoxdur. Deyilənlərə görə Qız qalası rəsədxana məqsədilə inşa edilmiş, buradan göy cisimləri müşahidə edilmişdir.

Bildiyiniz kimi, Qız qalası ilə bağlı bir çox əfsanələr var. Bir əfsanədə Bakı şəhərinin əfsanəvi banisi Xunsurun öz günahsız bacısını qalada kilidli saxlaması

haqqındadır. Buna cavab olaraq qız özünü qaladan atır. Nəticədə Allah Xunsurun otaqlarını əlindən alır və onların əvəzində Xəzər dənizini yaradır. Başqa bir əfsanəyə görə öz atası tərəfindən zorla Tatar hökmdarına ərə verilən bir şahzadə qız bu qalanın yerləşdiyi dağın zirvəsinə qaçaraq orada məskən salmış, sonralar həmin yeri alınmaz bir istehkama çevirmişdir. Həmin qız bu istehkama hasar çəkdirərkən onun divarları üzərinə daşdan qız kəllələri nəsb etdirmişdir. Buna görə də bu qalanın adı əslində Qız qalası deyil, "Qız kəlləsi"dir. Səslənən fərziyyələr içində həqiqətə yaxını Qız Qalasının müdafiə istehkamı olmasıdır.




**İçə ri şə hə r**







Tarixin müxtəlif dövrlərində əcdadlarımızın gah Quzgun, gah Hirkan, gah da Alban adlandırdıqları Xəzər dənizi öz qoynunda bəşər mədəniyyətinə aid neçə-neçə maddi-mədəniyyət abidələrini qoruyub-saxlayır.

Ən qədim dövrlərdən bəri yurdumuzun şimal qapısı sayılan Dəmirqapı Dərbənddən Abşeron yarımadasına qədər Xəzərsahili ərazi boyunca dalğaların sahilə atdığı saxsı qırıntıları sanki yüzilliklərin, minilliklərin o üzündən indiki nəsillərə göndərilən çağrışlardır.

50 milyonluq Azərbaycan xalqının ictimai-iqtisadi həyatını, onun maddi və mənəvi mədəniyyətini olduğu kimi təqdim etmək üçün orta əsrlərdə şəhərsalma və şəhər həyatının düzgün işıqlandırılması vacibdir. Bu çağırışları cavabsız qoymayıb ona səs verənləri Xəzərin dərinliklərində qayaüstü rəsmlərdən ta orta əsr maddi-mədəniyyət abidələrinə qədər böyük bir xəzinə gözləyir.

Mənbələr, eləcə də tarixi və arxeoloji materiallar göstərir ki, Azərbaycanın bir çox şəhərləri kimi Bakı da antik dövrdə iqtisadi cəhətdən inkişaf etmiş və sıx əhaliyə malik olan iri yaşayış məntəqəsinin böyüməsi nəticəsində meydana gəlmişdir. Bакının кiçiк yaşayış məntəqəsindən şəhərə çevrilməsində neft və duz кimi sərvətlərin olması mühüm əhəmiyyət daşıyır. İçərişəhər Qədim Şəhər Azərbaycan xalqının mədəni irsinin nadir incisi, hər bir Azərbaycanlının qürur mənbəyidir. 22 hektarlıq, çox da böyük olmayan ərazidə yüzlərlə tarixi abidə vardır ki, bunlardan da 4-ü dünya, 28-i yerli əhəmiyyətlidir. İçərişəhər şəhər içərisində unikal şəhərdir. Onun unikallığı eyni zamanda öz infrastrukturu və yaşayış massivləri ilə birlikdə canlı orqanizm olması ilə ölçülür.

İçərişəhər qalası Azərbaycan Respublikası ərazisində, Bakı şəhərinin mərkəzində, Xəzər dənizi sahilində orta yüksəklikli təpəliklərdə yerləşir və qala divarları ilə əhatə olunur. Divarların, hündürlüyü 8-10, eni isə 3,5 metrə çatır. Unikal tarixi abidələr və turizm potensialının geniş spektri İçərişəhəri turizm üçün maraqlı məkanlardan birinə çevirir. İçərişəhər dincəlmək üçün çox romantik bir yerdir ki, siz orta əsrlər dövrünə səyahət edəcək, o dövrün ruhunu duyacaq və müsbət enerji qazanacaqsınız.

İçərişəhər bir növ canlı orqanizmdir. Onun özünəməxsus taleyi vardır. İçərişəhər mahir memarların, sənətкarların peşəкarlığından söhbət açır, bizi ötən qərinələrə aparır. Dövrümüzə gəlib çatmış bu şəhərin dar, əyri-üyrü кüçələrini, meydançalarını göz önünə gətirdiкcə ötən yüzilliкlərdə haкim olmuş şəhər həyatının zaman keçdiкcə necə dəyişdiyini görürüк. Onun divarları arasında sanкi кeçmişə qayıdaraq, o dövrün səsini duyuruq. "Mədəni qatlarda" şəhərsalma ənənələrini izlədiкdə burada sənət eşqilə yaşayıb-yaradan insanların ürəк çırpıntılarını eşidiriк. İçərişəhərdə izdihamlı ticarət meydanları, кüçələr və böyüк məhəllələr meydana gəlmişdi. O, sözün əsl mənasında daxili məhəlli struкturlara maliк olub hər şeydən əvvəl iqtisadi mərкəz кimi formalaşmışdı.

Babalarımızın ta qədimlərdən bəri vətəni qorumaq məharəti bu gün də milli ordumuz və silahlı qüvvələrimiz tərəfindən öyrənilir. İçərişəhər və onun müdafiə istehkam qalaları hərbi vətənpərvərlik simvolu olaraq gənc nəslin milli qürür hisslərilə tərbiyə olunmasında bariz bir örnəkdir.

## III Bölmə. Yubiley tədbirlərinin keçirilməsi:

Yuxarıda qeyd etdiyimiz kimi Ölkəşünaslıq materiallarının Uşaq Kitabxanalarında təbliği deyərkən nələr nəzərdə tutulur? Bu zaman, öyrənilən ərazi Azərbaycan Respublikasının iqtisadi-coğrafi rayonlaşdırılmasında, əhali və onun bölüşdürülməsi, sənayesi, kənd təsərrüfatı və onun strukturu, nəqliyyatı, xidmət sahələri, inzibati ərazi bölgüsü əsas götürülür.

Bütün bu saydıqlarımıza əlavə olaraq öyrənilən ərazinin kartoqrafik və topoqrafik təsvirləri, öyrənilən əraziyə aid müxtəlif cədvəl, sxem və diaqramlar, ərazinin müxtəlif sahələrini əks etdirən fotoşəkillər, doğma diyarı vəsf edən şeirlərdən və s. istifadə oluna bilər. Ölkəşünaslıq materialları kompüterə daxil edilərkən yazı və görüntü materialları bir-birini elə tamamlamalıdır ki, vəhdət təşkil etsin. Ölkəşünaslıq coğrafiyanın tərkib hissəsi sayılmaqla eyni zamanda yerli elmi-kütləvi informasiya xarakteri daşıyır. Yəni oxucuların öz yaşadıqları ərazi üzrə görə bilmədiyi (və ya eşitmədiyi) coğrafi obyektlər ekrana gətirilir və bu da nəticə etibarilə, oxucu ruhuna, dünyagörüşünə və ən əsası yaddaşına birbaşa təsir edir. Ölkəşünaslıq materiallarının işlənib hazırlanması başqa mövzulardan tam fərqli olaraq sərbəst yanaşılan bir mövzudur. Belə bir materialların hazırlanması kitabxanaya gələn oxucu və şagirdlərin kitaba, dövrü mətbuata mənimsəmə keyfiyyətini artıran cəhətlərdəndir.

Ölkəşünaslıq materiallarının tədrisində elektron variantın tətbiqi də vacib məsələlərdən biridir. Bu oxucularda mənimsəmə və qavrayışı asanlaşdırır, əyaniliyi təmin edir, oxuduqlarının yaddaşda daha yaxşı qalmasına şərait yaradır, oxucular ölkəşünaslıqla bağlı daha ətraflı bilik və məlumatlar əldə edir, kompüter variantı operativ texniki informasiya vasitəsi kimi oxucuları özünə cəlb edir, onların doğma yurda olan məhəbbətini artırır. Beləliklə, sorğu, müşahidə, eksperiment, elmi-tədqiqat yolu ilə diyarşünaslıq materiallarının toplanılaraq elektron dərs sisteminə daxil edilməsi əhəmiyyətli işlərdəndir. Digər tərəfdən sual-cavab və müzakirələr əsnasında oxuculara sərbəstlik verilməlidir ki, onların doğma yurdla bağlı fikir, təklif və rəyləri üzə çıxsın. Bu da nəticə etibarilə ölkəşünaslıq materiallarının zənginləşməsinə xidmət etmiş olur.

Hər il oduğu kimi bu il də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Metodika və Biblioqrafiya şöbəsinin illik iş planlarına müntəzəm olaraq daxil edilən Ölkəşünaslığın Uşaq Kitabxanalarında təbliği məsələsinə böyük diqqət

ayrılmışdır. Bu məqsədlə metodiki vasitələr, metodiki məktub və tövsiyə ədəbiyyat siyahıları hazırlanmış, rayon və məktəb kitabxanalarının işçilərinə göndərilməsi nəzərdə tutulmuşdur. Mövzu yuxarıda qeyd etdiyimiz kimi çox geniş bir mövzudur. Bu mövzu haqqında bir çox seminarların, monitorinqlərin, ekskursiyaların keçirilməsi məqsədəuyğun olardı. Həmçinin kitabxanalarda ölkəşünaslıq kataloq və kartotekasının yaradılması birinci dərəcəli məsələlərdən biri hesab olunmalıdır. Ölkəmizin tarixi, ictimai-siyasi həyatı, mədəniyyəti ilə tanışlıq üçün kitabxana təbliğatının müxtəlif vasitələrindən də istifadə edilməlidir.

Bu zaman kitab sərgiləri, biblioqrafik icmallar, ucadan oxular, mütaliə gecələri, görüşlər, dəyirmi masalar keçirmək, ekskursiyalar təşkil etmək, saytlar yaratmaq məqsədəuyğundur.

Ölkəşünaslığa dair fondun öyrənilməsində monitorinqlərin keçirilməsi də bu sahədə görülən işlərə daha diqqətlə yanaşmağa imkan yarada bilər. Beləliklə, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil olunan bir neçə sərgilərlə sizi yaxından tanış edirik. İlk öncə təşkil etdiyimiz I sərgidə kitablarla bərabər qəzet və jurnal materialları, tövsiyə ədəbiyyat siyahıları, mövzu kartotekaları, sənədlər və görkəmli insanların sitatları nümayiş olunur. Bu guşə və sərgilərin tərtib və təşkilində əsas məqsəd ölkəmizlə yaxından tanış olmaq istəyənlərə bələdçilik etməklə bərabər, oxucularımızı, gənclərimizi öz ölkələrini yaxından tanımağa, onu daha çox sevməyə təşviq etməkdən ibarətdir.

**I sərgi: "Dildə, fikirdə, işdə birlik"**adlı sərgi divardan asılır.

***Azərbaycan-anamın yatdığı torpaq, anamın torpaqlaşdığı məkan.***
***Azərbaycan-anamın səsini, izini yaşadan torpaq,***
***Anamın əkdiyi ağacı bitirən torpaq.***
***Azərbaycan-dünyanın müdrik diyarı, vəfalıların sevgili yarı...***

## Sitatlar:

1. Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən Azərbaycanlıyam.

Heydər Əliyev
Ulu öndər

2. Xalqımızın incəsənət, mədəniyyət sahəsindəki nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Mən bununla daim fəxr etmişəm.

Heydər Əliyev
Ulu öndər

3. Gərək nəbzin Vətənin nəbzi ilə vursun.

Heydər Əliyev
Ulu öndər

4. Vətən sevgisi torpağa yox, torpaq üstündəki insanlara duyulan sevgidir.

Əbülfəz Elçibəy
İctimai xadim

5. Siz ata-babalarınızın müqəddəs yerlərinə o vaxt Vətən deyə bilərsiniz ki, onun sahibi olasınız.

Nəriman Nərimanov
Yazıçı, publisist

6. Vətən qədrini o kimsə bilər ki, Vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün.

Nəriman Nərimanov
Yazıçı, publisist

7. “Sən bizimsən, bizimsən durduqca bədəndə can,
Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!”

M.Ə.Rəsulzadə
İctimai xadim

**Sərgidə istifadə olunan kitabların foto sərgisi:**
























**Həmçinin sərgidə Vətən haqqında Atalar sözlərindən də istifadə etmək olar.**

1. Bülbülü saldılar qəfəsə dedi: "Ay Vətən, ay Vətən". Buraxdılar, qondu tikan koluna, dedi: "Can Vətən, can Vətən".
2. Vətən viranə də olsa, məsəldir, məhz cənnətdir.

3. Vətəndən ayrı ayrı düşsəm, viran ollam, talannam.
4. Vətən həsrəti çəkdim, gözlərimə qan gəldi.
5. Qürbətdə xan olunca, Vətənində dilən, gəz.
6. Dağ yeri - duman yeri, Yurd yeri - guman yeri.
7. Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır.
8. Vətənə gəldim, imana gəldim.
9. Dam dirək üstə durar.
10. Doğma yurd şirin olar.

**II Sərgi: "Folklorumuz və abidələrimiz"**

**"Folklorumuz və abidələrimiz"** adlı sərgidə oxucuların əl işləri və rəsm əsərləri nümayiş etdirilir.


























**III Sərgi: “Azərbaycan odlar diyarım”**

**“Azərbaycan odlar diyarım”** adlı sərgidir. Sərgidə Azərbaycanın qeyri-adi gözəllikləri, təbiət mənzərələri, qədim abidələri nümayiş olunur. Sərgiyə baxan və onu seyr edən hər bir kəsdə ölkəmiz haqqında dərin məlumat və təəssürat yaranır. Əlavə şərhə, izahata ehtiyac qalmır. Əshabi-Kəhf ziyarətinin əzəməti, Bakının rəmzi olan Qız qalası və onun ətrafı, İçərişəhərin görünüşü, Mömünə xatun məqbərəsi, sərgiyə gələnləri valeh edir.



Canım Bakı, qanım Bakı



Qoşa qala qapısı



Naxçıvan şəhəri



Mömünə xatun məqbərəsi




Əshabi-kəhf



Lənkəran şəhəri




Şuşa şəhəri




Bərdə şəhəri



Qax rayonu




Göygöl rayonu



İmamzadə türbəsi



Azərbaycanın dilbər guşəsi Qəbələ



Zaqatala rayonu




Yevlax rayonu


Mingəçevir şəhəri


Masallı rayonu

Hazırladığımız sərgilərin içərisinə belə bir sərgini də daxil etmək olar.
**IV sərgi. “Azərbaycan milli mətbəxi”.** Bu sərgidə Azərbaycanımızın milli xörəklərini, şirniyyatlarını, bölgələrimizdə hazırlanan milli yeməklərimizin foto sərgisini nümayiş etdirmək olar.

“Azərbaycan milli mətbəxinin tarixi də elə xalqın tarixi qədər qədimdir”. Azərbaycan kulinariyası öz tarixi kökləri və özünəməxsusluğu ilə həm regionun xüsusiyyətlərini özündə birləşdirir, həm də o birilərindən xeyli fərqlənir. Azərbaycan xörəkləri yüksək dad-tam keyfiyyətləri ilə dünyada məşhurdur.


Yarpaq dolması


Kabab


Badımcan dolması



Xingal



Plov




Qutab



Paxlava



Şəkərbura



Təndir çörəyi



Azərbaycan çayı

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil olunan tədbirlərdən biri də şeir müsabiqəsidir. “**Könlümün sevgili məhbubu mənim, vətənimdir, vətənimdir, vətənim”** adlı Şeir müsabiqəsinə yaxşı şeir demək bacarığı olan uşaqlar cəlb olunur. Bu tədbir uşaqların ən çox sevdiyi və maraq göstərdiyi tədbirlərdən biridir. Belə bir tədbirdə görkəmli şair və yazıçıların gözəl diyarımız Azərbaycan və onun ayrı-ayrı bölgələri haqqında yazılmış şeirlərdən istifadə oluna bilər. Nümunə üçün Abbas Səhhətin “Vətən” şeirini təqdim edirik:

*******

***Könlümün sevgili məhbubu mənim,***
***Vətənimdir, vətənimdir, vətənim.***

***Məni xəlq eyləmiş əvvəlcə xuda,***
***Sonra vermiş vətənim nəşvü-nüma.***
***Vətənim verdi mənə nanü nəmək,***
***Vətəni, mancə unutmaq nə demək?!***
***Anadır hər kişiyə öz vətəni,***
***Bəsləyib sinəsi üstündə onu.***
***Südüdür kim, dolanıb qanım olub,***
***O mənim sevgili cananım olub,***
***Saxlaram gözlərim üstə onu mən.***
***Ölərəm əldən əgər getsə vətən.***
***Vətənin neməti nisyan olmaz,***
***Naxələflər ona qurban olmaz.***
***Vətən-əcdadımızın mədfənidir.***
***Vətən-övladımızın məskənidir.***
***Vətənin sevməyən insan olmaz.***
***Olsa, ol şəxsdə vicdan olmaz.***

***********

Bildiyiniz kimi, "Vətən" şeiri Azərbaycan ədəbiyyatının şah əsərlərindəndir və mütəmadi olaraq dərsliklərə salınır. Onu əzbər bilməyən azərbaycanlı tapmaq çətindir. Vətən insanın ikinci anasıdır. Onun uğrunda can verməyə belə hazırıq. Hara getsək, harda olsaq da Vətənimiz üçün darıxırıq. Bizim üçün ondan gözəl yer yoxdur. Bir çox şairlər və yazıçılar var ki, Azərbaycanımızı şerlərində dəfələrlə tərənnüm etmişlər.

Abbas Səhhətin "Vətən" şeiri qısa olmasına baxmayaraq, böyük məna daşıyır. Şair burada çoxlu bənzətmələrdən istifadə edir. O, Vətəni ana, sevgili məhbub, canan adlandırır. Onun südünün qanımıza çevrildiyini məcazi olaraq ifadə edir və insanın qansız yaşaya bilmədiyi kimi, bizim də vətənimiz olmadan yaşaya bilmədiyimizi göstərməyə çalışır.

Vətəni sevməyən bir insanın olmasına şübhə edən, olsa da o insanda vicdanın olmadığını deyən şair, bu torpağın əcdadlarımızın məzarları olan yer və bizim yaşadığımız məskən olduğunu xüsusi qeyd edir. Ümumiyyətlə, şerin hər bir bəndi vətənə məhəbbətlə doludur və şair vətənin insan üçün nə qədər vacib olduğunu anlatmağa çalışır.

Sonda kitabxanaçı oxuculara **" Vətən haradan başlanır?"** mövzusunda kiçik esse yazmağı tapşırır.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlər planına **"Azərbaycanımızı sevək və öyrənək"** şüarı altında ekskursiya təşkil etmək olar. Kitabxanaçı bir qrup məktəb şagirdlərini toplayıb Tarix-diyarşünaslıq muzeyinə və Qobustan Dövlət Tarix və Bədii Qoruğuna ekskursiya təşkil edir. Belə bir ekskursiyanın təşkili şagirdlərin müşahidə bacarığını inkişaf etdirir, deyilənlərin müvafiq məkanda mənimsənilməsini reallaşdırır. Uşaqlar kitabxanaçının köməyi

ilə qədim dövrə xas olan mədəni-irsi abidələrimiz haqqında, Qobustan qayalıqları haqqında geniş məlumat əldə edirlər.

Kitabxanaçı Qobustan Dövlət Tarix və Bədii Qoruq haqqında bir qədər məlumat verir. Gördüyünüz bu qoruq Azərbaycan ərazisində arxeoloji abidələr kompleksinin mühafizə edildiyi bir qoruqdur. Qoruq Qaradağ rayonunun Qobustan qəsəbəsində, paytaxt Bakidan 56 km aralıda yerləşir. Burada həmçinin muzey də fəaliyyət göstərir. Qoruqda əsasən Mezolit (orta daş dövrü) abidələri sərgilənir. Burada mağaralar, bulaqlar və s var. Ekskursiyaya gələn məktəblilərə muzey işçilərindən biri Qobustanda yerləşən Qavaldaş haqqında məlumat verir.

Bildiyiniz kimi, Böyükdaş və Cingirdağda olan və "Qavaldaş" adlanan daş musiqi qurğuları qədim qobustanlıların böyük ixtirası kimi dəyərləndirilir. Oxun icad olunması qəbilə adamlarının maddi güzəranı üçün nə qədər lazım idisə, zərb musiqi qurğusu – "Qavaldaş"ın yaradılması da musiqi zövqlərini təmin etmək, rəqs və mahnı mərasimləri düzəltmək üçün olduqca əhəmiyyətli idi. Cingirdağdakı "Qavaldaş"ın quruluşu təpənin döşündə yastıq kimi iki iri daşın üstündə üçüncü daş qoyulmuşdur. Bu daş altdakılara nisbətən xeyli yastıdır. Alt daşlarla üst daş arasında boşluq vardır və dərə ilə cərəyan edən hava axını bu boşluqdan keçir.
Böyükdaşdakı "Qavaldaş"ın quruluş forması bir qədər fərqli olsa da, prinsip etibarilə eynidir. Qurğu həmişə hava axını keçən dərədə quraşdırılmışdır. Qaya üstündəki iri yastı daşın altına bir tərəfdən daş dirsək qoyulmuşdur. Hər iki qavaldaş kiçik bir daşla döyəcləndikdə mis kimi cingiltili səs verir.

Bu möhtəşəm musiqi qurğuları bu gün də yerlərində durur və öz quruluşları, qeyri-adi səsləri ilə qoruğa gələnlərin böyük diqqətinə və heyrətinə səbəb olur. Və bura gələn şagirdlər də öz heyrətlərini gizlədə bilməmiş kitabxanaçı və muzey işçilərinə minnətdarlıqlarını bildirmişlər. Ekskursiyanın sonunda kitabxanaçı şagirdlərə informasiya verir ki, bu yerlərdən tapılmış arxeoloji materiallar Qobustan Muzeyində saxlanılır. Tədbirin yekunu olaraq kitabxanaçı ekskursiyanın təəssüratlarını aşkara çıxaran ümumiləşdirici sorğu da aparır.

**Qobustan qayalıqları:**















F. Köçərli adına Uşaq Kitabxanasında keçirilən tədbirlər siyahısına ekskursiyani daxil etmək yerinə düşərdi.

Kitabxanamızda kiçik yaşlı uşaqlara xidmət göstərən nağıl otağı var. Bu nağıl otağında uşaqlar üçün nağılların, əfsanələrin ucadan oxusu keçirilir. Məsələn, kitabxanaçı Qız Qalası haqqında oxuculara kiçik bir əfsanə oxuya bilər. Yuxarıda qeyd etdiyimiz kimi, ucadan oxuda istifadə olunan əfsanə və nağıllar kiçik yaşlı oxucuların yaddaşlarına əbədi həkk olunmasına çox böyük kömək edir. Kitabxanaçı əvvəlcə nağıl otağındakı uşaqları salamlayır:

"Salam əziz uşaqlar! Sizi bu gözəl nağıl otağında salamlayır, kitabxanamıza xoş gəlmisiniz deyirik. Əziz uşaqlar bildiyiniz kimi, Qız qalası haqqında bir çox əfsanə, nağıl və rəvayətlər var ki, belə bir əfsanədən birini mən bu gün sizlər üçün oxuyacağam.

Qədim əfsanəyə görə iki qardaş var imiş. Bu qardaşlardan biri şah, o birisi isə kasıb bir kəndli imiş. Şah qardaşın qızı, kasıb qardaşın isə oğlu var imiş. Şah qızı o qədər gözəl imiş ki, onun gözəlliyi bir çox igidləri heyran qoyurmuş. Yoxsul qardaş da igid bir cavan imiş. Hətta əmisinin üstünə basqın edən işğalçılara həmişə qalib gələrmiş. Cəngavər oğlan bütün bunları əmisinin qızını sevdiyi üçün yox, ancaq vətəni müdafiə naminə eləyərmiş. Günlər keçdikcə oğlanın əmisinin qızına olan məhəbbəti alovlanır. Oğlan bütün bu olanları atasına söyləyir. Atası bu işin baş tutmayacağını bildirir. Oğlan icə cavabında deyir: "Öldü var, döndü yoxdur". Naəlac qalan ata məsələni qardaşına söyləyir. Qardaşı isə acıqlanıb deyir ki, sənin oğlun mənim qızıma tay ola bilməz. Şah qızının gözəlliyi qonşu şahlara da çatmışdı. Odur ki, Göybənd şahı qıza elçi gəlir. Şah buna razılıq verir. Toyun

tezliklə olacağını bildirir. İşi bu yerdə görən şah qızı oğlana deyir ki, axşamdan mən iki at hazırlayacağam. Tez gələrsən.

Bəli, şah qızı atasının qiymətli daş-qaşlarından götürüb oğlanla bərabər qaçırlar. Qız oğlana bildirir ki, biz elə yerə getməliyik ki, onlar bizi tapa bilməsinlər. Sonra gəlib bir dağın başına çıxırlar. Bu dağa çıxmaq o qədər də asan deyildi. Buranın ancaq bir yolu vardı. Qız oğlana bildirir ki, mən burada yaxşı bir qala tikdirəcəyəm. Oğlan tez bir zamanda usta tapıb gətirir. Qız əvvəlcədən ustaların xərcini iki qat verir və deyir ki, bu qala elə bir qala olmalıdır ki, bu qalaya ancaq bir yolla çıxmaq mümkün olsun. Onu da deyir ki, gərək palçığın suyu ancaq yumurta sarısından olsun. Bəli, qala hazır olur. Qalanın qalınlığı bir metrə yaxındır. İndi isə şah qızı ustalara bildirir ki, yaxınlıqdakı Soltan Heydər adlanan dağdan su çəkilməlidir. Ancaq bu su yerin altı ilə gəlməlidir. Şah qızının bu işi də düzəlir.

Sah qızı hətta özünə qoşun toplayır və onları qalanın yaxınlığında yerləşdirir. (hazırda həmin yerə "Qala kəndi" deyilir.) Qalanın şöhrəti gedib qızın atasına çatır. Odur ki, atası böyük bir qoşunla Göybənd düzünə gəlir. Həmçinin Göybənd şahı və onun adamları nə qədər çalışırlarsa qalanı çıxa bilmirlər. Odur ki, qalanı oxa basırlar. Bunun əvəzində şah qızının adamları da cavab oxu qaytarır. İşi bu yerdə görən qoşun geri dönmək istəyir.

Bu zaman hiyləgər bir qarı onları başa salır ki, qalaya gedən suyu kəssəniz onlar təslim olarlar. Şah isə qoşunu ilə bərabər nə qədər axtarırsa qalaya gedən suyu tapa bilmir. Qarı bunların naşı olduğunu görüb deyir ki, siz bir qatır tapın və həmin qatırı qırx gün susuz saxlayın. Sonra da gecə ikən aparıb qalanın ətrafında gəzdirin, qatır haranı ki, ayaqları ilə döysə, bilin ki, qalaya su ordan gedir. Belə də eləyirlər. Qatır qaladan iki kilometr aralı bir yerdə dırnağı ilə yeri eşməyə başlayır. Şah əmr edir ki, həmin yeri qazsınlar. Görürülər ki, buradan saxsı arxla su axır. Saxsı arxı sındırıb suyu kəsirlər. Ancaq qala təslim olmur. Sonradan oğlan qaladan xəbər göndərir ki, nahaq yerə qoşunu qırdırmayın. Şah, əgər igidsənsə gəl təkbətək vuruşaq. Kim qalib gəlsə, qız onundur. Göybənd şahı hiylə yolu ilə razı olur. Oğlan yavaş-yavaş qaladan çıxıb düzə gəlir. Vuruş başlanır. Birinci həmlədə oğlan qələbə çalır. Ikinci həmlədə oğlanı arxadan vururlar. Bütün bu olanları qaladan görən qız həmin dəqiqə qılıncı ürəyinə sancır. Qoşun sevinə-sevinə qalaya yaxınlaşır. Bu zaman şah ürək eləyib içəri girə bilmir. Sonradan o özünü toplayıb qalaya girir və öz qızını qan içində görür. Göybənd şahı təklif edir ki, bütün bu olanlardan sonra qalanı uçursunlar. Lakin şah buna razı olmur. Və deyir:

- Qızımı itirdim, barı qoy onun yadıgarı olan "Qız qalası" yaşasın. Və beləliklə, "Qız qalası" adı beləcə məşhurlaşır. Sonda kitabxanaçı bir qədər Azərbaycanın tarix və mədəniyyət abidələri haqqında bir qədər oxuculara məlumat verir ki, bu da onların şüur və təfəkkürlərinin formalaşmasına yaxından kömək etmiş olur.

Əziz uşaqlar, bildiyiniz kimi, Azərbaycanın tarix və mədəniyyət abidələri dünya mədəni irsinin ayrılmaz tərkib hissəsidir. Azərbaycanda dörd mindən artıq abidə qeydə alınmışdır ki, onlardan 122-si dünya əhəmiyyətli abidədir. Bakı, Qız

qalası, Şirvanşahlar sarayı, Şəki xan srayı, Qobustan muzeyi, Atəşgah abidələri isə YUNESKO-nun "Qızıl kitabı"na düşmüşdür".

Nağıl sona çatdıqdan sonra kitabxanaçı hazırladığı suallarla uşaqlara müraciət edə bilər.

Kitabxanamızda keçirilən maraqlı tədbirlərdən biri də ədəbi-bədii gecə və ədəbi-bədii kompozisiyalardır. Ədəbi-bədii gecə və kompozisiyaların keçirilməsi "Ölkəşünaslıq materiallarının uşaq kitabxanalarında təbliğinə yaxından tanış olmağa imkan verir.

Kitabxanada ədəbi-bədii gecə və ədəbi-bədii kompozisiya bir çox başlıqlar altında keçirilə bilər. Məsələn: "Azərbaycan doğma diyarım","Azərbaycan odlar diyarım", "Azərbaycan - mənim elim! Azərbaycan - mənim dilim!", "Həmişə yaşar Azərbaycan!", "El bilir ki, sən mənimsən!" və s. başlıqlar altında tədbir keçirtmək olar.

Tədbirin əvvəlində Azərbaycanın Dövlət himni səslənir. Azərbaycan bayrağı səhnəyə gətirilir. Səhnə Azərbaycanın gözəl guşələrini əks etdirən rəsm əsərləri ilə bəzədilir. Tədbirə bir çox insanlar dəvət olunur. Tədbirin maraqlı keçməsi üçün Azərbaycan tarix-diyarşünaslıq muzeyinin müdirini və həmçinin bölgələrimizdən olan Tarix-diyarşünaslıq muzeylərinin əməkdaşlarını dəvət etmək olar. "Azərbaycan-mənim elim! Azərbaycan-mənim dilm!" adlı tədbiri kitabxanaçı açıq elan edir. Tədbirin ədəbi hissəsində hər bir bölgənin plakatı ilə səhnəyə çıxan iştirakçılar öz nöbələrində bölgələri haqqında geniş məlumat verir, çıxışlar dinlənilir. Bədii hissədə isə oxucular bu bölgələrə aid olan şerlərdən, mahnılardan parçalar söyləyir, sənhəciklər göstərirlər.

*Aparıcılar səhnəyə daxil olur.*

***Azərbaycan....Azərbaycan***
***Allahın xəlq etdiyi təbiətin zümrüd qaşı-Azərbaycan...***
***Dünyanın başlanğıc yaşı-Azərbaycan...***
***Məkanlar içində qədimdən qədim-Azərbaycan...***
***Sən rəbbin bir lütfüsən Yer kürəsinə.***
***Sən dünyanın ciyərparasısan-Azərbaycan...***

**I Aparıcı:** Keçmişini, irsini, tarixini, mədəniyyətini qəlbinə hopdurmuş olan əyilməz, sınmaz, dağılmaz bir gəminin yolçularıyıq. Bu gəmi çox möhkəmdir. Dəmirağac möhkəmliyi, Laçın qayasının sərtliyi, nəsildən-nəslə ötürülən güc, müdrik qocaların nəsihətləri, Ağrı dağının ağırlığı var bu gəmidə. Nənələrin əl işi, babaların qoyduğu iz, özündəkilərini anlamaq, sahib çıxmaq, əlindən alınmışları qaytarmaq, keçmişinin ruhaniyyətinin xeyir-duası ilə yola çıxır bu gəmi. Uzaq məmləkətdə min ilməli, min naxışlı bir xalı var. Babalarımızın təri hopmuş bir saxsı qab var. Piltəsi itmiş bir çıraq, qulpu sınmış bir cəhrə, yağı alınmış bir nehrə, yazılmış bir kitab var. Biz sizinik deyir bu canlı tarixlər.

Onları özümüzünküləşdirmək üçün yola çıxır bu gəmi. Azərbaycan məmləkətinin tozunu, torpağını müqəddəs bilən bir nəsildir bu gəminin yolçuları. Azərbaycanı dünyaya sevdirmək və bu məmləkətə xidmət etmək üçün yola çıxır bu gəmi. Uzunəsrlik tariximizin varisi olaraq insanlığın səadəti üçün, fitnə-fəsad törədənlərə qarşı islahedici bir düşüncənin sahibidir bu gəminin yolçuları. Bu düşüncəyə sahib olan insan "vətən" deyib oturar, "vətən" deyib qalxar...

**II aparıcı:** Vətən hardan başlanır sualına mən belə cavab verərdim: "Doğulduğun evdən, isindiyin ocaqdan, ilk qədəm basdığın torpaqdan, su içdiyin bulaqdan başlanır Vətən". Ulu məmləkətimiz, doğma Azərbaycanımız hər bir azərbaycanlının ürəyidir. Amma hər kəsin ürəyinin içində bir ürək çırpınır. Ürəyimizin içindəki ürəyimiz doğulduğumuz, torpağına ilk qədəm basdığımız el-obadır.

***Səhnəyə oxucu daxil olur. Bəxtiyar Vahabzadənin "Vətən" şeirini söyləyir.***

******************

***Çağırır indi bütün milləti imdada Vətən,***
***Dəyişilməz ey oğul, cənnətə dünyada Vətən.***

***Bizə meydan oxuyan bilməlidir birdəfəlik,***
***Nə satılmaz, nə verilməz binədən yada, Vətən.***

***Sinə altında gərək qəlb kimi hər an döyünə,***
***Yana ulduz kimi hər sözdə, hər imzada Vətən.***

***Vətən eşqindən ucalsın bütün istəklərimiz,***
***Yaşasın arzuda, məqsəddə, təmənnada Vətən.***

***Ulular uymadı var-dövlətə, yalnız dedilər:***
***Ən böyük bəxşişimiz bizdən hər övlada: Vətən!***

***Vətən eşqindən alar Bəxtiyar öz qüdrətini***
***Döyünər qəlbi kimi hər yeni misrada Vətən.***

*******************

***Ana Vətənimiz Azərbaycanın paytaxtı olan Bakı şəhərinin plakatı ilə səhnəyə aparıcı daxil olur.***

**I Aparıcı:** Bakı - müstəqil Azərbaycan Respublikasının paytaxtı, böyük elmi-mədəni və sənaye mərkəzidir. Bakı qədimliyinə, ərazinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qocaman və ən böyük şəhərlərindən biridir. Bakı şəhərində və Abşeron yarımadasında insanlar çox qədim zamanlardan məskunlaşmış və burada yaşayış məntəqələri yaratmışlar. Buna səbəb Bakı

şəhərinin fiziki-coğrafi şəraiti şimaldan-cənuba, qərbdən-şərqə gedən miqrasiya və ticarət yollarının kəsişməsi mərkəzində yerləşməsi (“İpək Yolu”), iqlim şəraiti və ən qədim zamanlardan yer üzünə çıxan nafta adlanan yanacaq və enerji sərvəti olmuşdur. Bakı haqqında ilk dəfə eramızdan 3500 il əvvəl birinci Misir Faraonu Menesanın dövründə “Ölülər Kitabında” qeyd edilmişdir. Eləcə də Bakının qədim şəhər olmasını Abşeronda və Qobustanda 12 min il tarixi olan daş üzərində yazmalar, arxeoloji tapıntılar, eyni zamanda eramızdan əvvəl I əsrdə Roma imperatoru Pompeyin və Lukullun Zaqafqaziyanın işğalı məqsədilə Bakının ətrafında (40 km cənub istiqamətində) saldıqları hərbi düşərgələr barəsində Avqust Qay Oktavi tərəfindən yazılmış daş yazısı sübutdur. Bu tarixləri nəzərə alsaq, bu gün Bakının 5,5 mindən çox yaşı vardır. Bakı XII-ci əsrdə Şirvanşahlar dövlətinin, XVI əsrdə Səfəvilər dövlətinin, XVII əsrdə Osmanlı imperiyasının, XVIII əsrdə isə Bakı xanlığının əsas şəhərlərindən biri olmuşdur. Bakı şəhəri Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin sahilində yerləşir, onun ərazisi 2200 kv km, əhalisinin sayı 2 milyona yaxındır. Bundan başqa hazırda Bakı şəhərində erməni qəsbkarlarının işğal etdiyi rayonlardan və Ermənistan Respublikasından qovulmuş 500 minə yaxın qaçqın və məcburi köçkünlər yaşayır. Bakı özündə 11 inzibati rayonu, 5 şəhər tipli qəsəbəni birləşdirir.

***Səhnəyə musiqi məktəbindən dəvət olunmuş uşaqlar daxil olur. Onlar Söz. İslam Səfərlinin, mus.Emin Sabitoğlunun Bakı, sabahın xeyir! adlı mahnısını ifa edirlər.***



Musiqi məktəbindən dəvət olunmuş uşaqlar xalq artisti Zülfiyyə Xanbabayevanın repertüarından “Azərbaycan” mahnısını ifa edirlər.

*******************

***Bu dünyanın bir adı var canım mənim məmləkətim,***
***Günəş kimi daim yanar Odlar yurdu məhəbbətim,***
***Qoy ucalsın zirvələrə o yenilməz bayrağımız,***
***Qayıdacaq bir gün yenə hər bir qariş torpağımız.***

***Hər bir elin var öz yeri var mənim elim doğma diyar,***
***Gözəllikdə o bir bahar gələcəyə işıq saçar,***
***Qurban olum Azərbaycan bu müqəddəs torpağına***
***Baxib igid övladina qoy sevinsin hər bir Ana.***

***Öz sözü var, hörməti var ölkələrin arasında***
***Belə gözəl, belə zəngin var dünyanın harasında?***
***Vətənimin məğrur gücü, öz ürəyi. ilhamı var,***
***Xoş günlərə gedən yolda bir əbədi bayramı var.***

***Hər bir elin var öz yeri var mənim elim doğma diyar,***
***Gözəllikdə o bir bahar gələcəyə işıq saçar,***
***Qurban olum Azərbaycan bu müqəddəs torpağına***
***Baxıb igid övladına qoy sevinsin hər bir Ana.***

**************************

*Səhnədə Naxçıvan Muxtar Respublikasının* ***“Əsrlərdən bir yadigar”*** *adlı slaydı göstərilir.*

***Ovulub, tökülən torpaqlarını,***
***Gərək tanrımızdan bir nemət bilək.***
***Uçulub dağılan bu hasarını,***
***Qədim tariximdən qənimət bilək.***

***Şairə Kəmalə Ağaye***



**II Aparıcı:** Naxçıvan çoxəsirlik tarixə və zəngin maddi-mədəniyyət abidələrinə malik olan ən qədim Azərbaycan torpağıdır. Burada hələ neolit dövründə yerli tayfalar oturaq həyat sürmüş, müxtəlif təsərrüfat və sənət sahələri ilə məşğul olmuşlar. “Naxçuan”, “Naxcuan” və ya “Naqşecahan"” adlanmışdır. Bir sıra Fars və Türk mənbələrində Naxçıvan “Nəqşicahan” kimi göstərilir. Naxçıvan sözünün türk mənşəli olduğunu "Naxçıvan" sözü ilk mənbələrdə müxtəlif şəkildə verilmişdir. Şəhər yunanca “Naksuana”, pəhləvicə “Naxç”, ərəbcə “Nəşəva” və ya onu Akçıvan-Naxçıvan-Oğuz ağ ərənlər vətəni kimi mənalandıranlar da vardır. Son tədqiqatlar Naxçıvan sözünün mənşəyini elam dilindəki “Nahhunte” sözü ilə əlaqədar izah edirlər. “Van” toponimik formatının qədimliyini nəzərə aldıqda şəhərin ilk adının Nahhuntevan olduğunu düşünmək olar. Bu adın sonralar yerli türk əhalisi tərəfindən Naxçıvan şəklinə düşməsi mümkündür. Naxçıvan Yaxın Şərqin ən məşhur qədim şəhərlərindən biridir. Onun 3500 ildən çox yaşı vardır. Naxçıvan haqqında ilk yazılı məlumata Klavdiy Ptolemeyin “Coğrafiya” əsərində rast gəlinir. O, Naxçıvanın hələ miladdan öncə II yüzillikdə şəhər olduğunu xəbər verərək yazmışdır: “Naksuana geniş ərazisi olan Vaspuraqanın mərkəzidir. 37 nahiyədən ibarət olan bu ölkənin bir nahiyəsini də Naksuana təşkil edir”. Son tədqiqatlar şəhərin bina edilməsinin miladdan öncə II minilliyin ortalarına (1539) aid olduğunu göstərir.

**I aparıcı:** Böyük karvan yolunun üzərində yerləşən Naxçıvan şəhəri miladın III yüzilliyində sasanilər tərəfindən dağıdılmışdır. Burda VI yüzilliyin birinci yarısından VII yüzilliyin birinci yarısına qədərki dövrdə sasanilərə məxsus zərbxanalarda üzərində "Naxç" sözü yazılmış gümüş pullar kəsilmişdir. Kiçik Qafqazın cənub-qərb hissəsində yerləşən Naxçıvan Urmiya gölünə yaxındır. Azərbaycanın qərbində yerləşən Naxçıvan şərqin qapısı sayılır. İqlimi kontinentaldır. Yayı isti, qışı sərtdir. Zəngəzur sıra dağları, Dərələyəz, Hacı dağları ilə əhatə olunmuş, zəngin təbii sərvətlərə malık bir şəhərdir. Əsabi-Kəf müqəddəs ziyarət yeri Naxçıvanda yerləşir. Və həmçinin Nuhun gəmisi izləri də Naxçıvan yaxınlığındakı Ağrıdağda tapılmışdır. "Əshabi-Kəhf"lə bağlı uzun illərdən bəri müxtəlif istiqamətli kitablar, məqalələr yazılmış, filmlər çəkilmişdir. Qeyd edək ki, qaynaqlarda daha çox Türkiyədəki yeddi yatmış və onlarla bağlı rəvayətlərdən bəhs edilmişdir. Azsaylı müəlliflər istisna olmaqla, Naxçıvandakı "Əshabi-Kəhf" və onunla bağlı hadisələr lazımınca araşdırılmamışdır. Çap olunan materiallar isə daha çox rəvayəti, dini və mifik mətnləri əhatə edir.

Əshabi-Kəhf – Naxçıvan şəhərindən təqribən 12 km aralı, İlandağ ilə Nəhəcir dağı arasında yerləşir. Əshabi-kəhf ərəb dilində "mağara adamları" deməkdir. Azərbaycanın ümummilli lideri Heydər Əliyev hələ Sovet hakimiyyəti illərində xalqımızın dininə, inanclarına hörmət bəsləmiş və müqəddəs yerlərə qayğı göstərmişdir. Bu qayğı, müstəqillik dövrümüzdə də davam etmişdir. Onun 1998-cu ildə "Əshabi-Kəhf"in abadlaşdırılması və bərpa edilməsi barədə göstəriş verməsi, xalqımızın dininə və tarixinə göstərilən qayğının bariz nümunəsidir. Bu gün "Əshabi-Kəhf" tarixi abidəsi və ziyarətgahı yenidən qurulmuş, burada məscid tikilmiş, yol çəkilmiş, zəvvarlar üçün hər cür şərait yaradılmışdır.

II aparıcı: Əcəmi Naxçıvaninin dövrümüzə çatmış ən gözəl əsəri olan Möminə xatun türbəsi bu gün də orta əsrlər Naxçıvan şəhərinin əzəmətini əks etdirir. Naxçıvan memarlıq məktəbinin, bədii memarlıq səviyyəsinin bir şahidi kimi Naxçıvanın mərkəzində yüksəlir. Abidənin üzərindəki kitabədən türbənin 1186-cı ildə Atabəy Şəmsəddin Eldənizin oğlu Məhəmməd Cahan Pəhləvanın arvadı Möminə xatunun şərəfinə tikildiyi məlum olur. Monumental, əzəmətli bir tikinti olan Möminə xatun türbəsi Naxçıvana gələn səyyah və tacirlərin diqqətini çoxdan bəri özünə cəlb etmiş və abidə bir çox əsərlərdə öz əksini tapmışdır. Hələ XIX əsrin əvvəllərində Naxçıvana gələn Dübua de Monper abidəyə diqqət yetirmiş və onun kitabələrinin üzünü çıxararaq Peterburqa, akademik Frenə göndərmişdir. O

zamandan bəri müxtəlif alim və şərqşünaslar türbənin özü və kitabələri haqqında əsərlər nəşr etdirmişlər. Möminə xatun türbəsi bürcvari Azərbaycan türbələrinin ən görkəmli nümunəsidir. Zəmanəmizə qədər qalmış hissəsinin hündürlüyü 26 metr olan Möminə xatun türbəsinin xarici örtüyü dağılmışdır. Onun da 8 metr olduğunu nəzərə alsaq türbə keçmişdə 34 metr hündürlüyü olan dairəvi bir tikinti olmuşdur. Abidə yeraltı hissədən və yerüstü qurğudan ibarətdir.

I aparıcı: Məlumdur ki, XII əsrdən çox sonra da Əcəminin Naxçıvanda yaratdığı abidələr müxtəlif sənətkarlara nəinki ölkə daxilində və hətta Azərbaycanın sərhədlərindən kənarda da bir nümunə olaraq qalırdı. Əcəmi Əbubəkr oğlunun yaxın Şərq ölkələrində təsirini göstərməyə məşhur alman şərqşünası Ernist Ditsin "Türk sənəti tarixi" əsərində irəli sürdüyü mülahizə çox yaxşı nümunə ola bilər. O, Anadolu türklərindən olan məşhur Memar Sinanın yaradıcılığından bəhs edərkən deyir ki, Memar Sinanın İstanbulda tikdiyi bəzi türbələr, şübhəsiz ki, Naxçıvan türbələrinin təsiri nəticəsində əmələ gəlmişdir. Memar Sinanın Naxçıvan abidələri ilə necə tanış olduğunu izah edərkən Dits qeyd edir ki, Memar Sinan ordu mühəndisi sifəti ilə XVI əsrdə yeniçərilərin səfərlərində iştirak etmiş və Naxçıvanda olmuşdur. Türkiyə tədqiqatçıları da bunu qəbul edirlər. Memar Vədat Dalokay “Toplumcu Sinan” adlı məqaləsində Sinanın İstanbuldakı Xosrov Paşa türbəsindən bəhs edərkən “Atabəylərdən qalma bir nəfəs gəlir” yazmışdır.

Oxucular səhnəyə daxil olur. Şairə Kəmalə Ağayevanın “Səndə tarixlərin çox nişanı var” şeirini söyləyirlər.

*********

**I Oxucu:**

Mənim Naxçıvanım, doğma diyarım.
Sanki dünya ilə bir yaranıbdır.
O mənim qönçəli, güllü baharım,
Dağların mehiylə sığallanıbdır.

Qədim abidələr sərgisidir o,
Ölməz Əcəmidən nişanə qalıb.
Uca tanrımızın sevgisidir o,
Əshabül-Kəfində əfsanə qalıb.

**II Oxucu:**

Əlincə dağımız qeyrət qalası,
Yenə qayaların keşiyindədir.
“Mömünə xatun” da ismət qalası,
Ötən əsrləri bizə nəql edir.

Solmaz yaddaşıdır daş kitabələr,

Onların yurduma vəfası vardır.
Gilan xərabələr, lal sərdabələr,
Xəraba olsa da, bir yadigarıdır.

***Səhnədə Bərdə şəhərinin foto sərgisi canlanır.***

**I aparıcı:**

“Hərum” adlanırdı bu yerd hər yerdə
İndisə adına deyirlər Bərdə.
Bu mərdlər, gözəllər yurdunda inan,
Çox saysız xəzinə gizləmiş zaman.

Nizami Gəncəvi

Azərbaycan dünyanın ən qədim məskənlərindəndir. Azərbaycan həm də ulu tarixə malik şəhərlər diyarıdır. Həmin şəhərlərdən biri də vaxtilə ölkənin siyasi, iqtisadi və mədəni mərkəzi paytaxtı olmuş Bərdədir. Bərdə orta əsrlərdə Yaxın və Orta Şərqin nəhəng şəhərlərindən olmuşdur. Mənbələr, arxeoloji materiallar və etnoqrafik müşahidələr əsasında aparılmış tədqiqat Bərdənin çoxəsrlik və zəngin tarixə malik olması qənaətinə gəlməyə imkan verir. Cənubi Qafqazda, qədim və beynəlxalq ticarət yollarının kəsişdiyi yerdə yaranaraq inkişaf etmiş Bərdə şəhəri Azərbaycan xalqının iqtisadi, siyasi, və mədəni həyatında mühüm rol oynamışdır. Bərdə hələ orta əsrlərdə, mənbələrin dili ilə desək, “Arranın anası” olmuşdur.Yeri gəlmişkən ərəb mənbələrində indiki Cənubi Azərbaycan “Azərbaycan”, Albaniya isə “Arran” adlandırılmışdır. Bərdə şəhəri dünyanın ən qədim insan məskənlərindən olan Azıx yaşayış məskəninə yaxın bir ərazidə Kür və Tərtər çayları arasında salınmışdır. Bərdə şəhərinin gözəlliyinin təsvirinə Nizami Gəncəvinin “İsgəndarnamə” poemasında da rast gəlirik.

*********

**II aparıcı:**

“Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağları lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.
Söyüdlük çöllərə vermişdir zinət,
Ağ bağı elə bil həqiqi cənnət.
Qırqovul yuvası hər sərv ağacı,
Oxuyur kəkliyi, ötür turacı.
Səssizlik içində dincəlir gülşən,
Torpağı silinmiş qayğı, kədərdən.
Reyhanı yaşıldır illər uzunu,

Hər çeşid naz-nemət bürümüş onu.
Yem üçün quş gələr bu gözəl yurda,
İstəsən "quş südü" taparsan burda.
Torpağı yoğrulmuş qızıl suyundan,
Elə bil hər yanda bitmiş zəfəran.
O yaşıl yerləri dolaşıb gəzsən,
Şənlikdən başqa bir xəyal görməzsən".

**********

***Səhnədə Azərbaycanın gözəl guşəsi Şəki-Zaqatalanın görünüşü canlanır.***

**I Aparıcı:** Şəki təkcə Şəki-Zaqatala bölgəsinin deyil, bütün Azərbaycanın möcüzəsidir. Bura təbiətin gözəlliyi, zəngin ənənləri və özünəməxsus mədəniyyəti, yerli sakinlərin qonaqpərvərliyi, bənzərsiz ləhcəsi və incə yumor hissi ilə ad çıxarmışdır. Şəki Azərbaycanın ən iri rayonlarındandır. Şəki-Zaqatala bölgəsinin həm çoğrafi, həm iqtisadi, həm də mədəni mərkəzi rolunu oynayır. Şəki dəniz səviyyəsindən orta hesabla 700 m hündürlükdə yerləşir. Şəki ərazisində çoxsaylı tarixi-memarlıq abidələri mövcuddur. Buranı haqlı olaraq respublikanın memarlıq qoruğu adlandırırlar. Çoxsaylı arxeolji abidələr Şəkinin çoxəsrlik tarixə malik olduğunu sübut edir. Şəkinin tarixinin 2500-2600 il olduğu güman edilir. Şəkinin keşməkeşli tarixini rayon ərazisindəki çoxsaylı müdafiə qurğularının qalıqları sübut edir. Şəkinin ən qiymətli möcüzəsi Şəki xanlarının sarayıdır. Həmin saray 1761-62-ci illərdə memer hacı Zeynalabdin Şirazi tərəfindən Şəki xanlığının bünövrəsini qoymuş Hacı Şələbi xanın nəvəsi Hüseyn xanın sifarişi ilə tikilmişdir. Saray xalq memarlığı ilə saray arxitekturası ənənələrinin birləşdirən nadir nümunədir.

*Oxucular səhnəyə daxil olur və Şəki lətifələri söyləyirlər.*

**I Oxucu:** Müəllim şagirdlərə sərbəst mövzu tapşırır ki, ən əhəmiyyətli ev heyvanı barəsində yazsınlar. Şagirdlərdən biri inək, o biri camış, digəri isə qoyun barədə yazırlar. Müəllim inşa yazılarını yoxlayarkən şagirdlərdən birinə "5" qiyməti yazır. Onun yazısında bu cümlələr yazılmışdı:

- Onun ətindən kolbasa və sosiska, dərisindən gön-dəri məmulatı, dırnaqlarından suvenir kimi, tüklərindən paltar və ayaqqabı təmizləmək üçün şotka, hətta adından söyüş kimi də istifadə olunur.

Sən demə, bu əhəmiyyətli heyvan donuz imiş.

**II Oxucu:** Tüfü Tahir mağazada ayaqqabı satır. Bir qadınla ucaboy bir kişi ona yaxınlaşıb ayaqqabının qiymətini soruşurlar.

Tahir deyir:

- Qurtaranı yetmiş manatdır.

Qadın deyir:
- Axı bunun qiyməti əlli manatdır, heç olmasa onu bizə altmış manata ver də...
Tahir onun öz qiymətinin altmış manat olduğunu qadına inandıra bilmir və əlini kişinin çiyninə qoyub deyir:
- Ə, heç olmasa öz vicdanına and iç də...
Tahir:
- A dədəm, o, məndə ömrü boyu olmiyitdi.

**I Oxucu:** Bir dəfə Hacı dayı qonşularını cəm edib bir yerə yığır, sıralarda oturmalarını xahiş edir və sonra deyir:
- Hər kim ki, arvadddan razıdır əyləşsin, yerdə qalanlar çıxıb gedə bilərlər. Bir nəfərdən başqa hamısı oranı tərk edir.
Hacı yerində əyləşən kişidən soruşur:
- Demək arvaddan razı olan ancaq sənsən?
Kişi belini tutaraq cavab verir:
- Allah fəryadaa çatsın, axşam arvad kəfkiri belimə elə zollayıb ki, heç yerimdən tərpənə bilirəm ki!

***Azərbaycanın ən qədim şəhərlərindən biri olan Gəncə foto sərgisi səhnədə yer alır.***
***Səhnəyə musiqi məktəbinin uşaqları dəvət olunur. Sözləri Əhməd Cavada, musiqisi Emin Sabitoğluna aid olan "Gəncədən gəlirəm" mahnısını ifa edirlər.***

**II aparıcı:** Dahi Nizaminin vətəni, qədim mədəniyyət abidəsi - Gəncə şəhəri Kiçik Qafqazın şimal-şərq tərəfində, Gəncə-Qazax düzündə, Gəncə çayın hər iki sahilində yerləşir. Azərbaycanın içtimai-iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamış bu şəhər karvan yollarının kəsişməsində yerləşirdi. Burada səyahətçilər dayanır, uzaq ölkələrdən alimlər fikirləri ilə bölüşürdülər. Zəngin tarixin səhifələrini vərəqləyərkən biz onun hər bir sətrində qədim şəhərin izlərinə rastlaşırıq, onun səsini eşidir, nəfəsini hiss edirik.

**I aparıcı:** Gəncənin bir şəhər kimi formalaşması haqqında müxtəlif tarixi mülahizələr mövcuddur. Bəzi alimlər şəhərin yaranmasını eramızdan əvvəl, əksəriyyəti isə orta əsrlərin başlanğıcına aid edirlər. Hətta 1940-cı illərdə aparılan arxeoloji qazıntılar da bu nəticəyə gəlmiş və burada eramızdan əvvələ aid yaşayış məskənləri aşkar etmişlər. Şəhərin tarixi haqqında danışarkən bu şəhərin sosial-iqtisadi və mədəniyyət mərkəzi olduğunu qeyd etmək lazımdır. Gəncə ölkəmizin digər şəhərləri (Qəbələ, Naxçıvan, Şəki, Şamaxı) kimi gözəl coğrafi mənzərəyə sahib olan yaşayış məskəni olub tədricən şəhər kimi formalaşmışdır.
Gəncə Azərbaycanın ikinci böyük şəhəri 1804-cü ildən 1918-ci ilədək Yelizavetpol adlandırılmış, 1918-ci ildə Gəncə adı yenidən bərpa edilmişdir. 1935-cü ildə Gəncə adı dəyişdirilərək

Kirovabad adlandırılmışdır. 1989-cü ildə isə Gəncə adı yenidən bərpa edilmişdir. Ərazisi 110 km², əhalisinin sayı 336 min 100 nəfərdir. Şəhər əhalisinin orta sıxlığı isə 2755 nəfər/km² təşkil edir. Şəhər Gəncə çayı, Kür çayının cənubunda kənd təsərrüfatı cəhətdən zəngin bir ərazidə yerləşir. Gəncə uzun müddət Azərbaycanın əsas sənaye mərkəzlərindən biri olmuşdur.

**II aparıcı:** Gəncə şəhərində inşa olunmuş Nizami Gəncəvi Məqbərəsi şairin anadan olduğu şəhərin yaxınlığında yerləşir. Keçən əsrin 40-cı illərində dağılmış qədim məqbərənin yerində ucaldılmış daş məqbərəni əvəzləmişdir. Tikili 20 m hündürlüyündə silindrik formada mərmər bina və ətrafındakı park ilə yenilənmişdir. Məqbərənin yaxınlığında ölməz şairin yaratdığı əsərləri tərənnüm edən tuncdan abidə yerləşir.



İlk türbənin tikintisi XIII-XIV əsrlərə aid edilir. Nizaminin türbəsi vaxtilə Mirzə Adıgözəl bəy Qarabaği və Əsgərağa Gorani tərəfindən təmir etdirilmişdir. 1947-ci ildə şairin qəbri üzərində yeni məqbərə ucaldılmışdır. Məqbərə 1990-1991-ci illərdə yenidən qurulmuş, qədim arxitektura ənənələri saxlanılmaqla müasirləşdirilmişdir. Hazırda məqbərənin mərkəzi xiyabanının uzunluğu 125, eni 40 m-dir. Məqbərənin hündürlüyü isə 20,9 m-dir. Məqbərənin ətrafındakı sahədə şairin "Xəmsə"-sinin rəmzi kimi 5 iri fəvvarə tikilmişdir. Məqbərə şəhərin girəcəyində yerləşir. 1879-cu ildə Məkkə ziyarətinə gedən Seyid Əzim Şirvani də Nizaminin məqbərəsini ziyarət edir və onun acınacaqlı vəziyyətindən təsirlənərək məşhur rübaisini söyləyir:

Ey Şeyx Nizami, ey nizamı dağılan,
Ey Gəncədə izzü-ehtişamı dağılan.
Olmayıbdır cahanda bir səninlə məntək,
Beyti, evi, məktəbi, kəlamı dağılan.

*Oxucular səhnəyə daxil olur "Şərəfnamə"dən bir parça  söyləyirlər.*

**************************

**I oxucu:** ***Bu yerdə mənim tək yatanlar çoxdur,***
***Onları xatirə salan ki, yoxdur.***
***Təzə kəklik, yad et məni ürəkdən***
***Məzarım yanından ötüb keçərkən,***
***Görərsən üstümdə göyərmiş otlar,***
***Baş daşım uçulmuş, çökmüşdür məzar.***
***Qəbrimin tozunu sovurmuş yellər,***
***Dostlardan anan yox məni bir nəfər.***

**************************

Əziz qonaqlar və tədbir iştirakçıları! Bu gün biz bu tədbirdə Azərbaycanımızın bir çox görməli, gəzməli diyarları haqqında söhbət açdıq, bir çox şəhər, rayon, bölgələrin tarixi-mədəniyyəti ilə yaxından tanış olduq. Və hər bir diyarın musiqisi, mədəniyyəti, tarixi abidələri, mətbəxi ilə yaxından tanış olduqca fəxr və qürur hissi duyduq ki, bizim belə gözəl, səfalı, havası təmiz, insanları qonaqpərvər, şəhər və kəndlərimiz var. Əziz tədbir işrirakçıları gəlin etiraf edək və bir şeyi unutmayaq ki, bizim bir çox görməli, gəzməli, sevməli, tarixlərdə yaşatmalı doğma diyarlarımız var ki, bunlardan bir çoxu bu gün işğal altındadır. Əgər bu gün biz bu rayonlarımızı yada salmasaq, tarixlərdə yaşatmasaq bu özü böyük bir günah olar. İşğal altında olan rayonlarımızı gələcək nəsillərə sevdirmək hər birimizin borcudur. Gəlin birlikdə işgal altında olan rayonlarımızı bir daha yada salaq.

***"Könlüm keçir Qarabağdan..." adlı vidio görüntülər səhnədə canlanır. Həmçinin bu başlıq altında rəsm sərgisi də qonaqlara təqdim olunur. Səhnədən Azərbaycan Respublikası prezidenti  İlham Əliyevin sitatı asılır.***

***Erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı və təcavüz siyasətinin iki yüz ilə yaxın bir tarixi vardır. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "Böyük Ermənistan" dövləti yaratmaq idi. Müəyyən tarixi dövrlərdə bəzi aparıcı dünya dövlətlərinin planlarına uyğun gələn bu siyasəti reallaşdırmaq üçün müntəzəm surətdə ideoloji, hərbi və təşkilati xarakterli iş aparılmış, tədbirlər həyata keçirilmiş, ən müxtəlif üsul və vasitələrdən istifadə edilmişdir. Xalqımızın tarixi kobud şəkildə saxtalaşdırılmış, maddi və mədəniyyət abidələrimiz, toponimlərimiz erməni***

***tarixçiləri və "ideoloqlarının" təcavüzünə məruz qalmışdır. Onlar millətçiliyi və şovinizmi, qonşu xalqlara nifrət ideologiyasını əsas tutaraq "milli-mədəni", siyasi və hətta terrorçu təşkilatlar yaratmış, erməni doasporunun və lobbisinin imkanlarını bu məqsədlərə səfərbər etmişlər.***

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

***Bəstəkar Vasif Adıgözəlovun"Qarabağ şikəstəsi" oratoriyasından müəyyən parça səslənir.***

**I aparıcı:** Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan,
Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

Vətən oğlu, iki əsrdən artıqdır ki, Rus imperiyasının ağuşuna atılmış erməni-daşnak faşistləri varlığımıza qənim kəsilmişlər. Yaşamaq haqqımızı belə, əlimizdən almışlar. Bizi-Azərbaycan türklərini erməni-daşnak faşizminin erməni adıyla ifadə olunan, erməni barbarlığının, erməni vandalızminin, erməni vəhşətinin, və vəhşaniliyinin günahsız qurbanlarına çevirmişlər. Rus imperiyasının himayəsi və havadarlığı altında misli görünməmiş qəddarlıqlarla etnik təmizləmə siyasəti aparır, qətliamlar törədir, ulu əcdadlarımızın min illər boyu uyuduqları tarixi torpaqlarımızı ilhaq edirlər. Bütün bunlarla kifayətlənməyən erməni-daşnak faşistləri günü bu gün də azərbaycan torpaqlarını qəsb etmək, etnik təmizləmə və qətliam siyasətlərini davam etdirməkdən əl çəkmirlər. İyirmi ildən artıqdır ki, Vətənimizin döyünən ürəyi olan Qarabağ torpaqlarını işğal altında saxlayırlar. Bir milyondan çox soydaşımız çadır düşərgələrində, yük vaqonlarında, mal-qara qışlaqlarında, yol kənarlarındakı torpaq qazmalarda, tikintisi yarımçıq qalmış ictimai binalarda , yataqxanalarda, uşaq bağçalarında ağır şəraitdə həyat tərzi keçirirlər. Bu gün Qarabağı geri qaytarmaq Azərbaycan varlığını, onun ərazi bütövlüyünü, torpaqlarımızın toxunulmazlığını bərpa etmək, Azərbaycan dövlətçiliyinə əbədiyyət qazandırmaq, Azərbaycanda separatizmin kökünü kəsmək haqqımızı kimsə əlimizdən ala bilməz.

**II aparıcı:** "Qarabağsız Azərbaycan yoxdur" deyənlər haqq yolundadırlar. Vətən oğlu, Qarabağ bu gün bizim üçün Tanrı sınağı, qeyrət rəmzidir. Qarabağ bizim yaşam pasportumuzdur. Qarabağsız Azərbaycan ruhsuz candır. Bu gün Qarabağ milli qeyrət, milli mənlik, milli özünüdərk, olum-ölüm yolu, gələcək nəsillər qarşısında məsuliyyət hissi deməkdir. Qarabağı unutsan,

həyatınla, varlığınla, bu gününlə, sabahınla vidalaşmalı olacaqsan. Bu gün səni məhv etməyi, varlığını tarix səhnəsindən silməyi qarşısına məqsəd qoymuş erməni-daşnak faşizmi ilə üz-üzəsən. Yurd-yuvanı, əcdadının uyuduğu torpağı müdafiə etmək, mənliyini qorumaq, yaşamaq və gələcəyini yaşatmaq üçün Qarabağ uğrunda mübarizə aparmağa məhkumsan. Bu mübarizə sənin yaşamaq haqqın, həyat seçimindir!

***Oxucu səhnəyə daxil olur. Şairə Xuraman Şuşalının "Suşasız" adlı şeirini söyləyir.***

************

**Oxucu:**

İllər bir-birini çəkib aparır.
Ah ilə ötüşür ömür Şuşasız.
Hər il ümidimdən bir tel qoparır,
Arzumun çiçəyi solur Şuşasız.
Bu cənnət yurdumun bağrı sökülür,
Dumana bürünüb göyə çəkilir,
Üstümə cəhənnəm odu tökülür,
Görəndə bir il də gəlir Şuşasız.
Qəlbim "Segah" çalır, ruhum "Şikəstə",
Üzeyirim dərdli, Bülbülüm xəstə,
"Heyratı" üstündə Xan bizi səslər,
Muğam ocağımız sönür Şuşasız.
Vətənin başından düşübdür tacı,
Qəm qovurur, ələm bişirir sacım,
Xarı bülbülümün pərişan saçın,
Kim darayır, kimlər hörür Şuşasız.
Tarım nalə çəkir, inləyir kaman,
Bu həsrətə son qoyular nə zaman,
Can qurban lazımsa, versin Xuraman,
Onsuz da min kərə ölür Şuşasız,
Gündə milyon kərə ölür Şuşasız

**************

## Nəticə

Azərbaycan xalqının demokratik yolla azadlıq əldə etməsi azərbaycanlıların, onun tarixi şəxsiyyətlərinin vətənpərvərlik fəaliyyətinin nəticəsidir.

Nəticə kimi göstərək ki, Azərbaycan dövlət müstəqilliyinin yaranması (1918) və müstəqilliyin bərpası (1991) xalqımıza, Azərbaycanımıza (Şimal hissəsində) uzun illər yaddan çıxmış, istismarlar nəticəsində unudulmuş dövətçilik ənənəsi bərpa olundu. DÖVLƏT MÜSTƏQİL SİYASƏT YERİTDİ. Dövlət ampinutları yarandı. Azərbaycan dili dövlət dili oldu. Şərqdə təkcə Azərbaycanda qadınlarla kişilər hüquq bərabərliyinə sahib oldular. Dünyavi təhsil yarandı. Dövlətin ərazisi-sərhədləri müəyyən edildi. Dövlət əkskəşfiyyat (1919) idarəsi, Milli ordu, milli pul, sonralar gömrük idarəsi, vergi sistemi, özəlləşmə, səhiyyə, təhsil, elm-mədəniyyət sahələri inkişaf etdirildi. Daxili işlər Nazirliyi və digər nazirliklər yarandı. Ölkəyə, sərhədlərə nəzarət gücləndirildi. Hərbdə vəziyyət yaxşılaşdı, respublikada sabitlik yarandı (1993-cü ildən sonra).

Ölkədə iqtisadi, siyasi və diplomatiya yüksəldi. Xarici ticarət əlaqələri genişləndirildi. Bir çox dövlətlər ölkəmizə investisiya qoydular. Əsrin (XX əsr) neft müqaviləsi bağlandı ki, bu da çox böyük siyasi-iqtisadi yüksəlişə səbəb oldu. Neftlə yanaşı qaz müqaviləsi də bağlandı. Qədim

ipək yolu bərpa olunmağa başlandı, Tblisidən keçməklə Bakı-Qars dəmiryolu inşa edildi.

Azərbaycan dövlətinin apardığı demokratik siyasət nəticəsində 100-dən çox dövlətlə diplomatik əlaqə quruldu. Azərbaycan BMT (Birləşmiş Millətlər Təşkilatı), İslam Konfransının, keçmiş respublikalarla əlaqə məqsədilə Dövlətlər Birliyinə (MDB), Avropa Şurasına, Qaradəniz iqtisadi birliyinə və s. Üzv qəbul edildi. Demokratik siyasətin nəticəsində Azərbaycan respublikası 2007-ci ildən sonra dünyada güclü iqtisadiyyata malik olan dövlətə çevrilməyə başladı.

Azərbaycan müstəqil dövlətin yaranması və bərpası Qafqazda, o cümlədən müsəlman dünyasında ilk demokratik dövlətdir. Burada millətindən, cinsindən asılı olmayaraq bütün respublika əhalisi hüquq bərabərliyinə, seçib-seçilmək hüququna malikdir...

Ölkədə demokratik seçki sistemi yaradılmışdır. Milli Məclis deputatları demokratik qanunlar qəbul edir, respublikanın yüksəlişinə, möhkəmlənməsinə xidmət göstərirlər. Ölkədə bazar iqtisadiyyatı həyata keçirildi. Dövlət özəlləşməsi, dövlət islahatları, regionların iqtisadi inkişaf proqramı və s. qəbul edildi. Bu, Azərbaycanın, iqtisadi, siyasi inkişafının yüksəldilməsinə səbəb oldu.

Müstəqil dövlətin idmanı yüksəldi. İdmançılarımız Azərbaycan dövləti bayrağı altında dünya yarışlarında, olimpiadalarda iştirak edirlər. Azərbaycan müstəqil dövlətin yaranması Azərbaycan üçün faydalı və əhəmiyyətli olmaqla yanaşı, beynəlxalq aləm üçün də əhəmiyyətli olmuşdur. Xüsusən də Əsrin Neft müqaviləsinin bağlanması və onun icrasının həyata keçməsindən sonra özünü daha aydın göstərmişdir. Artıq Azərbaycan Avropa və digər ölkələrin enerji ehtiyatlarının təmin edilməsinə töhvə verir. Bu həm iqtisadi, həm də siyasi baxımdan əhəmiyyətlidir.

Azərbaycan respublikasının möhkəmlənib inkişaf etməsində əgər müstəqilliyin rolu olmuşsa da, əsas yerdə isə Azərbaycanın ümummilli lideri ulu öndər Heydər Əlirza oğlu Əliyevin tatanik fəaliyyəti və respublika prezidenti cənab İlham Heydər oğlu Əliyevin böyük, uzaqgörən və tarazlaşdırılmış siyasət aparması olmuşdur.

Əsərdə müəyyən mənada Azərbaycan dövlət müstəqilliyi və onun yaratdığı bir-çox sahələr işıqlandırılmışdır. Bütün bunlar Azərbaycan gəncləri üçün vətənpərvərlik nümunələridir.

Müəllim, tərbiyəçi, kitabxanaçı və gənclər bundan köməkçi material kimi faydalanmaqla, gənc nəslin vətənpərvərlik tərbiyə hissinin aşılanmasına nail olmalıdır. Vətənpərvərlik hissi böyük məfhumdur.

Onun tarixi qədimdir. Həm də müasirdir. Bu işdə öyrənib-öyrədənlərə və öyrənənlərə uğurlar diləyirəm.

Dövlət müstəqilliyinin öyrənilməsi və öyrədilməsi məqsədilə aşağıdakıları tövsiyə edirik:

Azərbaycan dövlət müstəqilliyinin yaranmasını və yenidən bərpa edilməsi tarixini və əhəmiyyətini gəns nəslə dərindən öyrətmək;

Müstəqil Azərbaycan dövlətinin siyasi, iqtisadi, mədəni həyatın yüksəlişinin əhəmiyyətini dəyərli faktlarla ətraflı təhlilini vermək;

Müstəqilliyimizininkişafina xidmət göstərməyə maksimum nail olmaq. Hər kəs öz sahəsi üzrə müsbət işlər görməli;

Birinci respublikanın (AXC) süqutunun səbəblərini və nəticələrini göstərmək;

İkinci respublika (Azərb.SSR) haqqında qısa da olsa məlumat vermək;

Üçüncü respublikanın (ADR) bərpası tarixini, əhəmiyyətini başa salmaq;

Şimali Azərbaycanda dövlət müstəqilliyinin möhkəmlənməsində ulu öndər Heydər Əliyevin Titanik fəaliyyətini-Dövlətçilik fəaliyyətini, dövlət atributlarının bərpasını, müstəqil dövlətin Konstitusiyasının yaranmasında rolunu, demokratik seçki sisteminin, neft strategiyasının, iqtisadiyyatının hüquqi əsaslarının yaradılmasını, dövlət diplomatiyasını və digər dövlət əhəmiyyətli sahələri öyrətmək;

Bugünkü Azərbaycanın siyasi, iqtisadi, sosial-mədəni yüksəlişində Azərbaycan respublikasının prezidenti cənab İlham Əliyevin apardığı tarazlaşdırılmış siyasətin əhəmiyyətinin gənc nəslə başa salmaq;

Şimali Azərbaycanda müstəqil demokratik dövlətin yaranmasının və bərpasının öyrədilməsində tarix ölkəşünaslıq materiallarının əhəmiyyəti nəzərə alınmalı, öyrədilməsi önəm daşımalı bu iş ardıcıl həyata keçirilməli və s.

# ƏDƏBİYYAT SİYAHISI

**P.Talıb Surxay.** Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi .- Bakı : Mütərcim, 2010. - 300 s.

**Bakı** : 2003-2013: Hədəflər, inkişaf, nəticələr .- Bakı : 2013. - 248 s.

**M. (Mahmudlu) Y.** Şuşa - Pənahabad - Bakı : Təhsil, 2012. - 152 s.

**Zaqatala bu gün.** - Bakı : Yazıçı, 2010. - 56 s.

**H. Sərvaz.** Tarix olduğu kimi: İmişli-80. - Bakı : Şəms, 2010. - 285 s.

**U. İsmayıl Balı.** Dağ Kəsəmən : Yurd bilgisi. İnsanlar. Talelər . - Bakı : Apostrof, 2009. - 487 s.

## Dövri mətbuat

## Füyuzat jurnalı. - 2012. - №1 (63). –S. 57

**İsmayıllı - qalalar** diyarı : Cavanşir qalası, On əsrlik Qız qalası, Fit qalası və b. // Mədəniyyət. - 2012. - 29 avqust. - **№ 61**. - S. 8.

**Z. Samir.** Tarix və mədəniyyət abidələri : İsmayıllı rayonunun Sulut kəndi / S. Zülfiyev // Mədəni həyat. - 2012. - **№ 2**. - S. 86-87.

**S. Seyran.**Tarixə şahidlik edən şəhər : Salyan 2008-il / S. Cavadov // Azərbaycan. - 2012. - 18 oktyabr. - **№ 234**. - S. 4.

**Z. Ceyhun.** Qəbələnin zəngin tarixini yaşadan muzey : Qəbələ tarixi-diyarşünaslıq muzeyi haqqında / C. Zərbəliyev // Mədəniyyət. - 2012. - 30 may. - **№ 38**. - S. 12.

**Mehparə.** Min illərin tarixini yaşadan xalq : Udinlər haqqında / Mehparə. // Mədəniyyət. - 2012. - 8 avqust. - **№ 57**. - S. 15.

**Əhmədov Ş.** Şamaxıda Şirvanşahlar dövrünə aid sarayın qalıqları tapılıb : Şirvanşahlar dövrü / Ş. Əhmədov // mədəniyyət. - 2012. - 3 avqust. - **№ 19**. - S. 5.

**N. Məmməd.** Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı...; Şamaxı laləsi ; Albom və s. : şeirlər / M. Namaz // Ədəbiyyat qəzeti. - 2012. - **№ 34**.

**E. Sadıq.** "Əfsanələr paytaxtı" nın : Publisistik düşüncələr / S. Elcanlı // Ulduz. - 2012. - **№ 3**. - S. 23-29.

**H. Yaşar.** Qədim diyarın yeni libası : Gədəbəy - 2012 Əfsanələr paytaxtı / Y. Hidayətoğlu // Mədəni həyat. - 2012. - **№ 6**. - S. 97-100.

**M. Elxan.** Qədim tarixə malik olan Quba abidə və etnoqrafik mənbələrlə zəngindir. - 2012. - 3 oktyabr. - **№ 109**. - S. 12.